12 oktyabr 2022 №75 (1948)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Bu, bizim mədəniyyətimizə və dilimizə ehtiramınızı nümayiş etdirir

Azərbaycan dilini öyrəndiyinizə görə sizə təşəkkür edirəm. Bu, sizin bizim mədəniyyətimizə və dilimizə ehtiramınızı nümayiş etdirir. Bilirəm ki, səfir təyin edilməmişdən əvvəl siz bir neçə həftə Azərbaycanın bölgələrindən birində yaşamısınız. Bu, sizin yeni vəzifəyə təyin edilməyinizlə əlaqədar nümayiş etdirdiyiniz yüksək məsuliyyətin daha bir göstəricisidir.

Prezident İlham Əliyev bu sözləri Böyük Britaniyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Fergus Auldun etimadnaməsini qəbul edərkən deyib. Qeyd edək ki, diplomat etimadnaməsini təqdim edərkən dövlət başçısı ilə Azərbaycan dilində danışıb.

səh. 2

## Görkəmli memarlar Mikayıl Hüseynov və Sadıq Dadaşovun birgə abidəsi ucaldılacaq



Azərbaycanda memarlıq sənətinin təşəkkülündə mühüm xidmətləri olan görkəmli memarlar Mikayıl Hüseynov (1905-1992) və Sadıq Dadaşovun (1905-1946) Bakı şəhərində birgə abidəsi ucaldılacaq.

Prezident İlham Əliyev bununla bağlı oktyabrın 8-də sərəncam imzalayıb.

Sərəncama əsasən, Mikayıl Ələsgər oğlu Hüseynovun və Sadıq Ələkbər oğlu Dadaşovun xatirələrinin əbədiləşdirilməsi məqsədilə onların vahid kompozisiya şəklində birgə abidəsi qoyulacaq.

Bakı Şəhər İcra Hakimiyyətinə Mədəniyyət Nazirliyi ilə birlikdə Mikayıl Hüseynovun və Sadıq Dadaşovun birgə abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Kitab sənayesi: həll edilən və həllini gözləyən məsələlər

Səkkizinci dəfə gerçəkləşən Bakı Beynəlxalq Kitab Sərgisi beş gün (5-9 oktyabr) kitabla bağlı və kitaba bağlı olanları – naşirləri, yazarları, oxucuları, çap və yayımla məşğul olan təsisatları, kitabxanaları və bu sahədə aidiyyəti rəsmiləri bir araya gətirdi.

Oktyabrın 6-da sərgi çərçivəsində mədəniyyət naziri Anar Kərimovun naşirlərlə görüşü keçirildi. Toplantının əsas mahiyyəti ötən il sərgidə görüş zamanı qaldırılan məsələlərin və edilən təkliflərin nazirlik tərəfindən icrası, yeni təkliflərin alınması, eyni zamanda mövcud problemlərin müzakirəsi ilə bağlı idi.

İştirakçıları salamlayan Anar Kərimov bildirdi ki, ötənilki görüşdə kitab sənayesi sektorunun inkişafı ilə bağlı bir sıra təkliflər səsləndirilib və onlar "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi tərəfindən ümumiləşdirilərək Mədəniyyət Nazirliyinə təqdim olunub. Həmin təkliflərin bir qismi birbaşa bizim səlahiyyətlərimizə aid məsələlər idi. Bəzilərinin həlli ilə bağlı nazirliyin vasitəçi qismində çıxış etməsi nəzərdə tutulurdu. Bir neçə təklifin reallaşdırılması isə aidiyyəti qurumlarla razılaşdırma tələb edirdi.

Nazir qeyd etdi ki, təqdim olunan təkliflər arasında bəzi məsələlər artıq həllini tapıb. Bunlardan birincisi kitab nəşri sahəsində qanunvericilikdə dəyişiklik edilməsi, yeni kitabın ƏDV-dən azad olunması idi. Məlum olduğu kimi, bu məsələ də həll edilib.

davamı səh. 3-də

## "Arşın mal alan" Rusiya Musiqi Akademiyasının səhnəsində




Oktyabrın 14-də Moskvadakı Qnesinlər adına Rusiya Musiqi Akademiyasının konsert zalında dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası nümayiş olunacaq.

Üzeyir bəyin dünyaca məşhur operettasını Kazan Konservatoriyası Opera Studiyası TATARİCA orkestri (dirijor Rinat Xəlitov) ilə birlikdə təqdim edəcək.

Ukraynanın Əməkdar incəsənət xadimi Rinat Bektaşevin quruluş verdiyi tamaşada opera studiyasının solistləri Syumbel Kiyamova, Ayrat Qəniyev, Aygül Qardislamova, Yevgeni Şornikov, Diana Muxutdinova və başqaları iştirak edirlər.

# Xalqlarımızın dostluğu zamanın və tarixin sınağından çıxıb

### "Qırğızıstan qardaş Azərbaycanla uzunmüddətli əməkdaşlığa və strateji sahələrdə ciddi qarşılıqlı fəaliyyətə hazırdır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Qırğız Respublikasına dövlət səfərinə gedib. Bişkek şəhərinin "Manas" Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi Qırğızıstanın dövlət başçısı Sadır Japarov qarşılayıb.



Prezident İlham Əliyev rəsmi görüşlərdən öncə Bişkekdə "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib. Dövlət başçısı görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun məzarını da ziyarət edib və üzərinə gül dəstəsi qoyub.

Məlumat verilib ki, "Ata-Beyit" Milli Tarixi-Memorial Kompleksi 2000-ci ildə Qırğız dövlətçiliyinin ən mühüm inkişaf mərhələlərinin tarixi yaddaşının bərpası və qorunub saxlanılması məqsədilə tikilib. Memorial Çingiz Aytmatovun təklifi ilə "Ata-Beyit" – "Ataların məzarlığı" adlandırılıb. Ümumi sahəsi iki hektar olan kompleksdə 1920-1930-cu illərdə Qırğızıstanın siyasi həyatını əks etdirən sənədlər və fotoşəkillər, digər tarixi materiallar toplanıb. Kompleksin mərkəzində məzarlıq yerləşir, həmçinin burada muzey fəaliyyət göstərir. Kompleksdə qırğız xalqının mübarizəsinin rəmzi olan "Urkun" abidəsi də var.

Oktyabrın 11-də Bişkekdəki Ala-Arça dövlət iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Sonra prezidentlər İlham Əliyevin və Sadır Japarovun iştirakı ilə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın məhdud tərkibdə iclası keçirilib.

Azərbaycan Prezidentini salamlayan Sadır Japarov deyib: "Sizin dövlət səfərinizə olduqca böyük əhəmiyyət veririk. Çünki bu səfər bizim qardaş ölkələrimiz arasında əsl strateji tərəfdaşlıq münasibətlərini nümayiş etdirir. Bizim xalqlarımızın dostluğu zamanın və tarixin sınağından çıxmış uzunmüddətli etibarlı və səmimi münasibətlərə əsaslanır. Ölkələrimiz bu il "Dostluq və əməkdaşlıq haqqında müqavilə"nin 25 illiyini qeyd ediblər. Üç aydan sonra bizim yeni yubileyimiz – diplomatik münasibətlərin qurulmasının 30 illiyi olacaq. Biz bu tarixə yaxşı nəticələrlə yaxınlaşmışıq. Bizim əməkdaşlığımız strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib".

Bu ilin aprel ayında Bakıya səfərini xatırladan Sadır Japarov Qırğızıstan-Azərbaycan qarşılıqlı əlaqələrinə dair məsələləri yenidən müzakirə etmək fürsətinə görə də məmnunluğunu bildirib: "Fərəhli haldır ki, dinamik şəkildə möhkəmlənən və genişlənən əlaqələr ölkələrimizin parlamentləri, hökumətləri və aidiyyəti qurumları arasında aktiv qarşılıqlı fəaliyyətlə nəticələnib. Aprel ayındakı bir sıra razılaşmalarımız hökumətlərarası birgə komissiyanın xətti ilə əməli surətdə həyata keçirilib, İşgüzar Şura yaradılıb, Heydər Əliyev adına, Nizami Gəncəvi adına məktəbləri, Qırğızıstan-Azərbaycan Dostluq parkını birlikdə açacağıq. Əminəm ki, Sizin səfəriniz və Dövlətlərarası Şuranın iclasının keçirilməsi ikitərəfli münasibətlərə yeni təkan verəcək. Bu, bizim əməkdaşlığımızın siyasi, ticari-investisiya və mədəni-humanitar sahələrdə fəal inkişafının parlaq göstəricisidir. Xüsusilə vurğulamaq istərdim ki, Qırğızıstan qardaş Azərbaycanla sistemli və uzunmüddətli əməkdaşlıq əzmindədir və strateji sahələrdə ciddi qarşılıqlı fəaliyyətə hazırdır".

Qardaş Qırğızıstana dövlət səfərinə dəvətə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev yarım il öncə Bakıda keçirilən görüşü məmnunluqla xatırlayaraq deyib: "Münasibətlərimizin belə dinamikası ondan xəbər verir ki, biz qarşılıqlı əməkdaşlıq potensialını artırmaq əzmindəyik. Sizin Azərbaycana rəsmi səfəriniz zamanı ölkələrimiz arasında "Strateji tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb. Bu Bəyannamə bizim əlaqələrimizi daha yüksək səviyyəyə qaldırıb. Əminəm ki, mənim səfərimin yekunlarına dair razılaşmalar əldə olunacaq və bu razılaşmalar bir çox sahələrdə əməkdaşlığın dərinləşməsinə kömək edəcək".

davamı səh. 2-də

## Fikrət Əmirovun 100 illiyi Türkiyədə konsert proqramları ilə qeyd olunub

Türkiyədə Azərbaycanın dünya şöhrətli bəstəkarı Fikrət Əmirovun (1922-1984) 100 illiyi münasibətilə konsert proqramları keçirilib. Konsertlər Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un elan etdiyi "2022 – Fikrət Əmirov İli" çərçivəsində, Azərbaycan Mədəniyyət Nazirliyi və Türkiyədəki səfirliyimizin də dəstəyi ilə gerçəkləşib.

Oktyabrın 7-də Adana Böyükşəhər Bələdiyyəsinin konsert salonunda Çukurova Simfonik Orkestri ilə birgə təşkil edilən konsert proqramı təqdim olunub. Konsertdə solistlər – Özbəkistandan Noir Yusupov, Feruza Yusupova, Türkiyədən Emrah Sözer, Azərbaycandan Xalq artisti Teyyub Aslan çıxış ediblər. Orkestri azərbaycanlı dirijor Mustafa Mehmandarov və türkiyəli dirijor Eray İnal idarə ediblər.



Proqram adanalı sənətsevərlər tərəfindən alqışlarla qarşılanıb.

Fikrət Əmirovun yubileyi Ankarada da qeyd edilib. Oktyabrın 9-da Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin "Paytaxt Mədəniyyət Yolu Festivalı" layihəsi çərçivəsində Çukurova Dövlət Simfonik Orkestrinin iştirakı ilə bəstəkara həsr olunmuş xatirə konserti keçirilib. Cümhurbaşqanlığı Simfonik Orkestrinin (CSO) səhnəsində düzənlənən tədbirə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı, Ankara Musiqi və Gözəl Sənətlər Universitetinin rektoru Erhan Özden, yerli qurum və təşkilatların nümayəndələri və sənətsevərlər qatılıb.

Dirijor Mustafa Mehmandarov və Eray İnalın idarə etdikləri konsertdə Türk dünyası solistlərinin ifasında səslənən Fikrət Əmirovun əsərləri tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb. Proqramdan sonra iştirakçılara Rəşad Məmmədov və Bilal Çakıcı tərəfindən plaketlər təqdim olunub.

## UNESCO-da ölkəmizin həyata keçirdiyi layihələr haqqında məlumat verilib

5-19 oktyabr tarixində Parisdə UNESCO-nun qərargahında qurumun İcraiyyə Şurasının 215-ci sessiyası keçirilir.

Sessiyanın açılışında UNESCO-nun Baş direktoru Odri Azule ötən dövr ərzində təşkilatın mandatına uyğun olaraq, beynəlxalq səviyyədə görülmüş işlərdən, keçirilən tədbirlərdən söz açıb, kollektiv məsuliyyətin vacibliyinə toxunub.

Sessiyanın plenar iclaslarında İcraiyyə Şurasının 28 üzv ölkəsinin, eləcə də qurumun üzvü olan Azərbaycanın milli bəyanatları dinlənilib.

UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Seymur Fətəliyev çıxış edərək, Azərbaycan-UNESCO münasibətlərindən danışıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu münasibətlərə verdiyi töhfələri diqqətə çatdırılıb, Milli Komissiyanın fəaliyyəti haqqında ətraflı məlumat verilib.




davamı səh. 2-də

## "Zəngəzur – Türk dünyasının qapısı"

Özbəkistanlı tarixçi Şuxrat Salamovun "Zəngəzur – Türk dünyasının qapısı" adlı əsəri VIII Bakı Beynəlxalq Kitab Sərgisində təqdim olunub.

Kitabın çapına Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) dəstək göstərib.

Tədbiri AMM-in direktoru Samir Abbasov açaraq Şuxrat Salamovun Ermənistan-Azərbaycan münaqişəsi, erməni daşnakların regionda, o cümlədən Türküstanda həyata keçirdikləri işğal və soyqırımı siyasəti mövzusunda araşdırmaları haqqında danışıb, tarixçi alimin yeni kitabının əhəmiyyətini diqqətə çatdırıb. Qeyd edib ki, "Zəngəzur – Türk dünyasının qapısı" kitabı ilk dəfə olaraq xarici bir müəllif tərəfindən aparılmış obyektiv tədqiqatın nəticəsi olaraq ərsəyə gəlib.

davamı səh. 4-də

### Opera və Balet Teatrının şanlı Zəfərə sənət hədiyyəsi



səh. 3

### Avropa Şurası Mədəni Marşrutlarının Məşvərət Forumu keçirilib

səh. 8




### "Uşaqların Nizami Gəncəvi dünyası"

səh. 8

# Xalqlarımızın dostluğu zamanın və tarixin sınağından çıxıb



əvvəli səh. 1-də

İkigünlük səfər müddətində tərəfdaşlığın möhkəmləndirilməsi yollarını müəyyənləşdirmək üçün fürsət olacağını deyən Prezident İlham Əliyev iki ölkə arasında əmtəə dövriyyəsinin mövcud potensiala uyğun olmadığını bildirib: "Lakin fikrimcə, bu, bizim nəzərdə tutduğumuz o planlardır ki, qısa zaman kəsiyində qarşılıqlı ticarətin həcmini artırmağa imkan verəcək. Azərbaycan, həmçinin Sizin ölkədə investisiya layihələrində maraqlıdır. Biz bu gün bunu da müzakirə edəcəyik.

Mən Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xatirəsinə ehtirama görə Sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Bişkekin böyük məktəblərindən birinə onun adı verilib. Həmçinin qeyd etdiyiniz kimi, Qırğızıstan-Azərbaycan Dostluq parkı, Nizami Gəncəvi adına məktəb açılacaq. Bizim əməkdaşlığımızın bütün bu əlamətdar anları, əlbəttə, Azərbaycan xalqının dərin minnətdarlığına səbəb olur və bizim münasibətlərin qardaşlıq xarakterini ifadə edir. Əminəm ki, biz bundan sonra da səmərəli əməkdaşlıq edəcəyik, ölkələrimiz arasında münasibətlər dinamik inkişaf edəcək".

***

Oktyabrın 11-də Bişkekdə prezidentlər İlham Əliyevin və Sadır Japarovun iştirakı ilə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın geniş tərkibdə iclası da keçirilib.

İclas başa çatdıqdan sonra Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub. "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Birinci Dövlətlərarası Şuranın iclasının Qərar"ını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov imzalayıblar.

İki ölkənin müxtəlif sahələrdə əməkdaşlığı, o cümlədən Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında saziş imzalanıb.

Sənədlərin imzalanması mərasimindən sonra İlham Əliyev və Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər.

Oktyabrın 11-də Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq parkının açılışı olub. Prezidentlər İlham Əliyev və Sadır Japarov mərasimdə iştirak ediblər.

Prezident İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri haqqında daha ətraflı qəzetin növbəti sayında.

# Moldova Azərbaycanla əməkdaşlığı genişləndirmək istəyir

Sizinlə görüşmək və yüksələn xətlə inkişaf edən ikitərəfli münasibətlərimizi müzakirə etmək üçün bu fürsətə görə olduqca minnətdaram. Həqiqətən, son ilyarım ərzində çoxsaylı səfərlər vasitəsilə əlaqələrimizdə xüsusi canlanmanın şahidi olmuşuq.




Oktyabrın 10-da ölkəmizə rəsmi səfərə gələn Moldova Respublikasının Baş naziri Nataliya Qavrilitsa bu sözləri Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə deyib.

Moldova Prezidenti Maya Sandunun səfər dəvətini dövlət başçısına çatdıran Nataliya Qavrilitsa bildirib ki, son dövrdə iki ölkə arasında müxtəlif səviyyələrdə çoxsaylı səfərlər olub: "Şadam ki, həmin rəsmi səfərlər əsnasında biz ikitərəfli münasibətlərimizin 30 illiyini qeyd etmişik. Həmçinin hesab edirik ki, siyasi, iqtisadi və humanitar əlaqələr çox sıx olmuşdur və təkmilləşmişdir. Lakin onların potensialı daha böyükdür... Son on ildə ilk dəfədir ki, Moldova-Azərbaycan iqtisadi komissiyasının iclası keçiriləcək. Əminəm ki, enerji, iqtisadi, ticari və sosial sahələrdə əməkdaşlığımızı genişləndirmək üçün bizim çox məhsuldar müzakirələrimiz olacaq".

Prezident İlham Əliyev bir neçə gün əvvəl moldovalı həmkarı ilə Praqada görüşdüyünü diqqətə çatdıraraq bildirib ki, bizim əvvəllər də görüşlərimiz, o cümlədən telefon danışıqlarımız olub. Bir sözlə, yaxşı işgüzar münasibətlər qurulub. "Azərbaycan ilə Moldova dost və tərəfdaşdırlar. Əminəm ki, gələn illər ərzində əməkdaşlığımızın intensivləşdirilməsi yolları üzərində çalışacağıq, çünki belə yaxşı siyasi münasibətlərlə yanaşı, biz birmənalı olaraq, digər sektorlarda imkanları da araşdırmalıyıq. İnanıram ki, səfəriniz zamanı bu məsələlər ciddi şəkildə nəzərdən keçiriləcək və biz ticari əməkdaşlıq, iqtisadi işbirliyində daha çox canlanmanı görəcəyik. Əminəm ki, ikitərəfli ticarət səviyyəsini artırmaq üçün böyük potensial var", – deyə İlham Əliyev vurğulayıb.

Qeyd edək ki, oktyabrın 11-də Bakıda Moldova Respublikasının Baş naziri Nataliya Qavrilitsanın Azərbaycan Respublikasının işgüzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib. Nataliya Qavrilitsa ölkələrimiz arasında əlaqələrin inkişaf istiqamətlərindən danışıb, ölkəsinin Azərbaycan iqtisadiyyatına marağını qeyd edib.

Moldovanın Baş naziri ölkəmizə səfəri çərçivəsində oktyabrın 11-də Heydər Əliyev Mərkəzində də olub. Ali qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi və burada yaradılan ekspozisiyalar, həyata keçirdiyi layihələr haqqında məlumat verilib.

Nataliya Qavrilitsa "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə qədim xalq sənəti, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, qədim çalğı alətlərimiz orijinal şəkildə – səsli formada təqdim olunur. Heydər Əliyev Mərkəzi ilə tanışlıq qonaqda xoş təəssürat yaradıb.

# Bu, bizim mədəniyyətimizə və dilimizə ehtiramınızı nümayiş etdirir

## Prezident İlham Əliyev: "Görün nə qədər yol qət etmişik ki, Britaniya səfiri azərbaycanca danışır..."

Azərbaycan dilini öyrəndiyinizə görə sizə təşəkkür edirəm. Bizim artıq görüşmək imkanımız olub və mən gördüm ki, siz, demək olar, Azərbaycan dilində səlis danışırsınız. Bu, olduqca gözlənilməz oldu, ancaq, eyni zamanda, bu, sizin bizim mədəniyyətimizə və dilimizə ehtiramınızı nümayiş etdirir. Bilirəm ki, səfir təyin edilməmişdən əvvəl siz bir neçə həftə Azərbaycanın bölgələrindən birində yaşamısınız. Bu, sizin yeni vəzifəyə təyin edilməyinizlə əlaqədar nümayiş etdirdiyiniz yüksək məsuliyyətin daha bir göstəricisidir.



Prezident İlham Əliyev bu sözləri oktyabrın 10-da Böyük Britaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fergus Auldun etimadnaməsini qəbul edərkən deyib.

Qeyd edək ki, diplomat etimadnaməsini təqdim edərkən dövlət başçısı ilə Azərbaycan dilində danışıb.

Prezident ümidvar olduğunu bildirib ki, Fergus Auld ölkəmizdə diplomatik fəaliyyəti müddətində Azərbaycanı daha yaxından tanımaq imkanı əldə edəcək və əməkdaşlığımızın gələcək inkişafına əhəmiyyətli töhfə verəcək: "Çünki əməkdaşlığımızın əsas və ənənəvi sahələrində artıq ciddi irəliləyiş və böyük nailiyyətlər var. Mən təkcə Azərbaycan üçün deyil, daha geniş region üçün bu gün heç zaman olmadığı qədər mühüm olan enerji sahəsini nəzərdə tuturam. Hesab edirəm ki, biz artıq enerjidən başqa sahələrə nəzər salmalıyıq – ticarət, qarşılıqlı ticarətin artırılması, turizm və insanlar arasında təmaslar. Düşünürəm ki, təhsil sahəsində əməkdaşlığın yaxşı nəticələri var. Bildiyiniz kimi, bir çox azərbaycanlı Böyük Britaniyada təhsil alıb və almaqda davam edir. Lakin bu əməkdaşlığın dinamikaya və müəyyən çərçivəyə ehtiyacı var. Ümumilikdə, biz tərəfdaşlığımızın səviyyəsindən olduqca məmnunuq. Uzun illər ərzində Azərbaycan və Böyük Britaniya arasında yüksək səviyyəli siyasi dialoq, qarşılıqlı maraqlara hörmət və bir sıra sahələrdə sıx əməkdaşlıq mövcuddur".

Dövlət başçısı qeyd edib ki, Böyük Britaniya Azərbaycana ən çox sərmayə qoymuş ölkə və strateji tərəfdaşdır: "Siz Azərbaycanda fəaliyyətinizə tamamilə fərqli mühitdə başlayırsınız. Çünki Qarabağ münaqişəsi başa çatdıqdan sonra regionda vəziyyət tamamilə dəyişib. Biz hesab edirik ki, bu, müsbət dinamikadan bəhrələnmək və regionumuzda davamlı sülhün bərqərar edilməsi üçün fürsətdir".

"Bizim mövqeyimiz çox aydındır. Biz bunu vurğulamışıq və ictimai şəkildə bir neçə vacib təkliflər irəli sürmüşük ki, onlar davamlı sülh, sabitlik, təhlükəsizlik və normal qonşuluq münasibətlərinə gətirib çıxara bilər" deyən İlham Əliyev bildirib ki, ölkəmiz bu istiqamətdə Böyük Britaniya Hökumətinin dəstəyinə ümid edir: "Bizə məlumdur ki, ölkənizin də regionla bağlı gündəliyi eynidir – sülh, sabitlik, təhlükəsizlik və əməkdaşlıq. Əminəm ki, qarşıdan gələn illərdə biz sizinlə, buradakı heyətinizlə və hökumət rəsmilərinizlə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinin sürətləndirilməsi istiqamətində əməkdaşlıq edəcəyik. Yəni, gündəliyimiz olduqca genişdir".

Dövlət başçısı sonda bir daha mədəniyyətimizə böyük ehtiramın nümunəsinə görə səfirə təşəkkür edib.

Fergus Auld Azərbaycan dilini öyrənməsi barədə danışaraq bildirib ki, ilk dəfə ölkəmizə illər öncə Azərbaycan dili tələbəsi kimi gəlib: "Altı həftə ərzində Gəncə şəhərində yerli bir ailə ilə yaşadım, onların yeməklərini yedim və həyatlarını paylaşdım. Sizin mənə söylədiyiniz kimi, bu öyrənmə Sizin mədəniyyətinizə dərin hörmətimi və böyük ölkənizi anlamaq istəyimi göstərdi. Xoş qarşılanmağım və xalqınızın qonaqpərvərliyi məni valeh etdi. Çox şadam ki, Azərbaycana səfir və dost kimi qayıdıram. Mən ümid edirəm ki, təzə bardağın suyu sərin olar".

Diplomat vurğulayıb ki, Böyük Britaniya regionda sülhün mümkün qədər tez əldə olunmasını arzulayır. O, həmçinin 2020-ci ilin oktyabrında Gəncə şəhərinin Ermənistan tərəfdən məruz qaldığı raket hücumunun ikinci ildönümü ilə bağlı həmin faciədə həlak olanların ailələrinə, eləcə də iki il əvvəlki müharibədə və döyüşlər başa çatdıqdan sonra toqquşmalarda və mina partlayışları nəticəsində həyatını itirənlərin də yaxınlarına başsağlığı verib.

Prezident İlham Əliyev deyib: "Təşəkkür edirəm. Siz danışdıqca öz-özümə düşündüm, görün nə qədər yol qət etmişik ki, Britaniya səfiri azərbaycanca danışır, Azərbaycan Prezidenti isə ingiliscə danışır və bir-birimizi anlayırıq".

# UNESCO-da ölkəmizin həyata keçirdiyi layihələr haqqında məlumat verilib

əvvəli səh. 1-də

Bu il Azərbaycanın UNESCO-ya üzvlüyünün 30 illiyinin qeyd olunduğunu vurğulayan Milli Komissiyanın baş katibi ötən dövr ərzində ölkəmizin UNESCO-nun prinsip və dəyərlərinin təşviqində rolundan bəhs edib. Vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iştirakçısı olduğu bütün beynəlxalq platformalarda, eləcə də UNESCO çərçivəsində dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində etibarlı tərəfdaşdır. Multikulturalizm, tolerantlıq və dini dözümlülük dövlət siyasəti səviyyəsində inkişaf etdirilib, ölkəmiz mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti ilə çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanıdır. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildən uğurla həyata keçirilən "Bakı Prosesi" qısa müddət ərzində mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platformaya çevrilib.




2025-ci ilə qədər UNESCO-nun İcraiyyə Şurasının üzvü olacaq Azərbaycanın UNESCO ilə mədəniyyət, təhsil, elm, informasiya və kommunikasiya sahələrində geniş əlaqələr qurmasından, UNESCO ailəsinin nüfuzlu üzvünə və donor dövlətinə çevrilməsindən söz açan baş katib bildirib ki, ölkəmiz UNESCO tərəfindən COVID-19 pandemiyası ilə mübarizə məqsədilə təsis edilmiş Qlobal Təhsil Koalisiyasına qoşulub və bu istiqamətdə ianə ayırıb.

Milli Komissiyanın baş katibi "Azərbaycan hökuməti ilə UNESCO arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi", onun əsasında yaradılmış Etimad Fondu, Azərbaycan hökuməti tərəfindən ayrılmış maliyyə vəsaiti hesabına UNESCO xətti ilə bir sıra Afrika ölkələrində qızların təhsili, maarifləndirilməsi, gender bərabərliyi, bəzi üzv ölkələrdə davamlı inkişaf üzrə qeyri-maddi mədəni irsin qorunması ilə bağlı layihələr həyata keçirilməsi haqqında da məlumat verib.

Seymur Fətəliyev UNESCO üzrə Azərbaycan Milli Komissiyası və ADA Universitetinin birgə təşkilatçılığı və UNESCO-nun dəstəyi ilə Bakıda Afrika ölkələrinin UNESCO üzrə milli komissiyalarının baş katibləri və səlahiyyətli nümayəndələrinin iştirakı ilə ilk təlim proqramının həyata keçirilməsindən də danışıb. Bildirib ki, proqram çərçivəsində iştirakçılara mədəniyyətlərarası dialoq, sülh mədəniyyəti, iqlim dəyişikliyinin dünya irsinə təsiri, dayanıqlı inkişaf, yaradıcı sənaye, UNESCO Konvensiyalarından irəli gələn öhdəliklərin həyata keçirilməsi və UNESCO-nun müvafiq siyahılarına daxil edilməsi üçün nominasiya fayllarının hazırlanması prosesi və digər mövzularda mütəxəssislərin və dövlət rəsmilərinin mühazirələri təşkil olunub və təqdimatlar keçirilib.

Diqqətə çatdırılıb ki, UNESCO üzrə Azərbaycan Milli Komissiyası qarşıdan gələn illərdə də müvafiq layihələrdə fəal iştirak edəcək.

# "Zülmətdən doğan günəş"

## Şəhid mayor haqqında kitabın təqdimatı



Azərbaycan İstiqlal Muzeyində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək və vətənpərvərlik ruhunun aşılanması məqsədilə həyata keçirilən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə davam edir. Oktyabrın 11-də layihə çərçivəsində "Zülmətdən doğan günəş" adlı kitabın təqdimatı olub.

Şairə Rəfiqə İsaqqızının müəllifi olduğu kitab Vətən müharibəsi zamanı düşmənin kabusuna çevrilən, 3 düşmən postunu alaraq qarşı tərəfin 20-dən çox xüsusi təyinatlısını məhv edən, torpaqlarımızın azad olunması uğrunda qəhrəmancasına döyüşən şəhid mayor Rüfət Əsgərov haqqındadır.

Tədbirdə şəhidin atası Mürvət Əsgərov, yaxın dostu polkovnik-leytenant Rüfət Məmmədov, kitabın müəllifi şairə Rəfiqə İsaqqızı, Vətən müharibəsi qaziləri Natiq Mikayılov və Aşur Gülqəzov çıxış ediblər. Qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onların qəhrəmanlığını gələcək nəsillərə nümunə göstərmək hər birimizin borcudur.

Sonda tədbir iştirakçıları mayor Rüfət Əsgərova məxsus, muzeyin fondlarında qorunub saxlanılan müxtəlif şəxsi əşyaların – hərbi formaların, sənədlərin, fotoşəkillərin nümayiş olunduğu sərgi ilə tanış olublar.

# Daha bir kitab bayramı tarixə qovuşdu

Bakıda keçirilən daha bir beynəlxalq kitab bayramı tarixə qovuşdu. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 5-9 oktyabr tarixində VIII Bakı Beynəlxalq Kitab Sərgisi ("Baku International Book Fair – 2022") keçirildi.

"Caspian Event Organisers" şirkətinin təşkilati dəstəyi ilə Bakı Ekspo Mərkəzində reallaşan sərgi Azərbaycanın mədəniyyət paytaxtının 270 illiyinə – "Şuşa İli"nə həsr olunmuşdu. 10-dan çox ölkədən (Türkiyə, Rusiya, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və s.) 100-dən artıq yerli və xarici nəşriyyat sərgidə iştirak edirdi.

Builki sərginin "fəxri qonaq ölkə"si Türkiyə Cümhuriyyəti idi. Türkiyə eyni zamanda daha çox nəşriyyat və yazarla kitab bayramında təmsil olunurdu.

Bakı Expo Mərkəzində qurulan "Üzeyir Hacıbəyli", "Bülbül" və "Xurşidbanu Natəvan" təqdimat zonalarında görüşlər təşkil olundu, imza mərasimləri gerçəkləşdi. Ümumiyyətlə, VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində 200-dən artıq tədbir keçirildi. Builki sərgidə ilk dəfə olaraq azyaşlı oxucular üçün xüsusi "Uşaq dünyası" adlı stend quraşdırılmışdı.

Sərgi ziyarətçilərinin metronun "Elmlər Akademiyası", "28 May" və "Koroğlu" stansiyalarından Bakı Ekspo Mərkəzinə xüsusi avtobuslar vasitəsilə gediş-gəlişi təmin edildi. Bu da oxucuların və sərgi çərçivəsində keçirilən tədbirlərə qatılmaq istəyənlərin işini xeyli asanlaşdırmışdı.

Sərginin sonuncu günü, oktyabrın 9-da "Xurşidbanu Natəvan" təqdimat zonasında bir sıra iştirakçı və qurumlara Mədəniyyət Nazirliyi tərəfindən təsis olunmuş "Ən yaxşı stend", "Ən çox satılan kitab", "Ən yaxşı nəşriyyat", "Ən maraqlı qonaq" və s. nominasiyalar üzrə mükafatlar, o cümlədən "Şuşa – 270" xatirə nişanı və fəxri fərmanlar təqdim edildi.

VIII Bakı Beynəlxalq Kitab Sərgisinə olan maraq, keçirilən rəngarəng tədbir və təqdimatlar Azərbaycanın kitab sənətinin mərkəzlərindən birinə çevrilməsindən xəbər verir. Yeni sərgilərdə görüşənədək.

# Kitab sənayesi: həll edilən və həllini gözləyən məsələlər

## Nazir Anar Kərimovun naşirlərlə görüşündə gündəmdəki mövzular müzakirə edildi

*əvvəli səh. 1-də*

### Azərbaycan kitabın ƏDV-dən azad olunduğu 50 ölkədən biridir

Nəşriyyat işinin predmeti üzrə əsas materiallar və məhsullar, eyni zamanda kitab satışı əlavə dəyər vergisindən azad olunub. Hazırda Azərbaycan kitabın tam şəkildə ƏDV-dən azad olunduğu dünyanın təxminən 50 ölkəsindən biridir.

Nazir bildirdi ki, digər təklif Bakı Beynəlxalq Kitab Sərgisinin hər il keçirilməsi ilə bağlı idi və 2021-ci ildən sərginin hər il təşkil olunması qərara alınıb. Xatırladaq ki, bunadək sərgi iki ildən bir keçirilirdi.

Daha bir təklif stendlərin nəşriyyatların kitab həcminə görə bölüşdürülməsi məsələsi ilə bağlı olub. Nazir bu təklifin də həlli reallaşan işlər sırasında olduğunu nəzərə çatdırdı və bildirdi ki, bu il Bakı Beynəlxalq Kitab Sərgisinin strukturu və formatı beynəlxalq kitab sərgilərinin təcrübəsinə uyğun yenilənib. Yerləşmə planı seksiyalar üzrə tərtib olunub və hər bir nəşriyyata istədiyi həcmdə sahəni əldə etmək imkanı yaradılıb. Bütün iştirakçılara tam təchiz olunmuş 6 kvadratmetr sahə ödənişsiz verilib və əlavə sahələrin icarəyə götürülməsi üçün təşkilati dəstəyi təmin edən şirkətə ödənilən vəsaitin bir qismi nazirlik tərəfindən qarşılanıb.





### Gələcək sərgilərə Nobel və Buker mükafatçıları dəvət ediləcək

Tanınmış əcnəbi yazarların sərgidə iştirakı məsələsinin builki sərgidə prioritet mövzulardan olduğunu deyən Anar Kərimov diqqətə çatdırdı ki, VIII Bakı Beynəlxalq Kitab Sərgisinə Türkiyədən 16, Rusiyadan 13, Özbəkistandan 2 müəllif dəvət olunub. Onların arasında dünya şöhrətli türkiyəli tarixçi-yazar İlbər Ortaylı, Türkiyənin modern poeziyasının nümayəndəsi Adnan Özər, uşaq ədəbiyyatı üzrə tanınmış yazarı Fateh Ərdoğan yer alıb. Növbəti sərgiyə ədəbiyyat üzrə Nobel və Buker laureatlarının dəvət olunması planlaşdırılır.

Nazir Bakı Beynəlxalq Kitab Sərgisinin piar və reklam aksiyalarının keçirilməsi ilə bağlı səsləndirilən təklifin də həllini tapdığını bildirərək vurğuladı ki, budəfəki sərginin təşkilati, piar və reklam işlərinin xüsusi proqramı və sistemi hazırlanıb. Kütləvi informasiya vasitələrində, elektron mediada və sosial şəbəkələrdə geniş təbliğat işləri aparılıb. Sərgiyə çağrı məzmununda 2 ədəd videoçarx və 10 ədəbiyyat və incəsənət xadiminin iştirakı ilə videomüracətlər hazırlanıb. Ən çox dinlənilən 3 radio tezliyində gün ərzində sərgi haqqında mütəmadi məlumat səsləndirilib.

Anar Kərimov bildirdi ki, bütün bunlar bizə edilən təkliflər arasında reallaşdırılan, həllini tapan məsələlər idi. Bununla belə, bəzi həllini gözləyən məsələlər də var: "Məsələn, Azərbaycanda kitab gününün və ya naşirlər gününün təsis olunması. Məlumat üçün qeyd edim ki, Azərbaycan Respublikasında "Naşirlər və kitabxanaçılar günü"nün təsis olunması ilə bağlı müvafiq qaydada vəsatət qaldırılmışdır".

### İSBN-in naşirlərə ödənişsiz verilməsi, gənc yazarlara dəstək...

Nazir bildirib ki, daha bir məsələ İSBN-in naşirlərə ödənişsiz verilməsi ilə bağlıdır: "Bildiyiniz kimi, ölkəmizdə İSBN-in verilməsi və tənzimlənməsi nazirliyin səlahiyyətləri çərçivəsində deyil. Biz bu məsələnin həlli ilə intensiv məşğul oluruq. Bu məsələnin həllində Azərbaycan nəşriyyatları da fəal olmalıdır. Mərkəzə illik ödənişin edilməsini və nəşriyyatlarımıza İSBN-in ödənişsiz verilməsini məqbul hesab edirik. Eyni zamanda biz bu məsələni Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi ilə də müzakirə edirik".

Nazir gənc yazarların əsərlərinin nəşrinin bir qisminin dövlət tərəfindən qarşılanması və Azərbaycan ədəbiyyatının dünyada tanıdılması məsələsinin həllini gözləyən işlər sırasında olduğunu nəzərə çatdıraraq qeyd etdi ki, gələn il bu iki layihənin icrasına başlanılması nəzərdə tutulur.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli bildirdi ki, bu il kitab alışı ilə bağlı nəşriyyatların təklifləri də nəzərə alınıb. Nazirlik tərəfindən bu ilin əvvəlində elan edilən "Nəşrlərin satınalınması müsabiqəsi" çərçivəsində nazirliyin tabeliyində olan kitabxana fondları üçün 498 174 manat dəyərində 50 465 nüsxə kitab alınıb. Bu, ötənilki alışla müqayisədə 5 dəfə çoxdur.

Görüş zamanı naşirlər kitab alışına göstərilən böyük dəstəyə və kitab sənayesi sektorunun inkişafı istiqamətində reallaşdırılan təkliflərə görə təşəkkürünü bildirdilər. Eyni zamanda naşirlər tərəfindən yeni təkliflər səsləndirildi və mövcud problemlərin həlli istiqamətində Mədəniyyət Nazirliyinin dəstək göstərəcəyinə əminlik ifadə olundu.

# "Müasir dövrdə kitabxanalar: gələcəyə baxış"

## Beynəlxalq sərgi çərçivəsində dəyirmi masa

Xəbər verdiyimiz kimi, VIII Bakı Beynəlxalq Kitab Sərgisinin proqramında Azərbaycan Milli Kitabxanasının təşkilatçılığı ilə bir sıra tədbirlər yer almışdı.

Oktyabrın 7-də sərgi çərçivəsində Milli Kitabxanada Albaniyaya dair daimi guşənin açılışı, Azərbaycan və Albaniya milli kitabxanası arasında əməkdaşlıq memorandumunun imzalanma mərasimi və "Müasir dövrdə kitabxanalar: gələcəyə baxış" mövzusunda dəyirmi masa keçirilib.

Albaniya, Latviya, Rusiya və Qırğızıstandan olan nümayəndə heyəti əvvəlcə kitabxana ilə tanış olublar. Sonra Beynəlxalq əməkdaşlıq zalında Albaniyaya dair daimi guşənin açılış mərasimi keçirilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov qonaqları salamlayaraq bildirib ki, ənənəvi olaraq hər dəfə Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində kitabxananın Beynəlxalq əməkdaşlıq zalında bir ölkəyə aid guşə yaradılır. Bu dəfə Albaniyaya dair daimi guşə təşkil edilib.




Sonra Azərbaycan Milli Kitabxanası ilə Albaniya Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb. Sənədi kitabxanaların direktorları Kərim Tahirov və Mişa Piro imzalayıblar.

K.Tahirov diqqətə çatdırıb ki, Azərbaycan Milli Kitabxanası dünyanın 60-a yaxın ölkəsinin kitabxanaları ilə əməkdaşlıq sənədi imzalayıb. O, Albaniya Milli Kitabxanası ilə əlaqələrin də bu memorandum sayəsində möhkəmlənəcəyini bildirib.

Albaniya Milli Kitabxanasının direktoru Mişa Piro da öz növbəsində memorandumun qarşılıqlı mübadiləyə, əməkdaşlığın genişlənməsinə zəmin olacağını deyib.

Sonra iştirakçı ölkələrin kitabxana nümayəndələri öz ölkələrinin ədəbiyyatına, mədəniyyətinə dair kitabları Azərbaycan Milli Kitabxanasına təqdim ediblər.

Daha sonra "Müasir dövrdə kitabxanalar: gələcəyə baxış" mövzusunda dəyirmi masa keçirilib. Kərim Tahirov bu gün kitabxanaların öz işlərini dövrün tələbləri səviyyəsində qurmaq üçün yeni iş forma və metodlarından istifadə etdiklərini vurğulayaraq iştirakçıları aktiv müzakirəyə dəvət edib.

Rusiya Dövlət Kitabxanasının prezidenti Viktor Fyodorov beynəlxalq tədbirə dəvətə görə Milli Kitabxananın rəhbərliyinə təşəkkürünü bildirib. Natiq kitabxanaların öz fəaliyyətlərini dövrün tələblərinə uyğun qurmalı olduğunu, çap əsərlərinin elektronlaşdırıldığını, bununla belə kitabxanaşünaslıq elminin kitabxana təcrübəsindən xeyli geridə qaldığını, bu sahədə yeni nəsil savadlı tədqiqatçıların yetişdirilməsinin, təhsilin inkişafının vacibliyini qeyd edib.

Rusiya Dövlət Kitabxanasının Beynəlxalq əlaqələr üzrə müdir müavini, Avrasiya Kitabxanalar Assambleyasının (BAE) baş direktoru Mariya Neryuyeva iki ölkə kitabxanaları arasında sıx əməkdaşlıq və oxşar xüsusiyyətlərdən danışıb.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru, professor Məmməd Əliyev Qarabağda işğal dövründə dağıdılmış kitabxanalar haqqında məlumat verərək Rusiya Dövlət Kitabxanası ilə kitabxana işi sahəsində mövcud olan problemlərin həllinə yönəlmiş birgə onlayn görüşün və Şuşada beynəlxalq səviyyədə bir iclasın təşkilini təklif edib.

Kərim Tahirov bu il Ankarada keçirilmiş İFLA-nın iclasında Azərbaycan ərazilərinin işğalı zamanı dağıdılmış kitabxanalarla bağlı məsələ qaldırdığını, bununla bağlı İFLA-ya kitabxana tərəfindən xüsusi müraciət ünvanlandığını diqqətə çatdıraraq, xarici qonaqları yenidən bərpa ediləcək olan kitabxanaların fondlarını formalaşdırmaqda köməklik göstərməyə çağırıb.

Dəyirmi masada BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılov, Qırğızıstan Milli Kitabxanasının Dissertasiya və avtoreferatlar şöbəsinin müdiri Gülnara Almankulova, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının şöbə müdiri Leyla İbrahimova çıxış ediblər. Çıxışlarda bu gün kitabxanalar üçün əsas problemlərdən olan müəllif hüquqları məsələsinə xüsusi vurğu edilib.

Tədbir zamanı Milli Kitabxananın direktoru Kərim Tahirova Rusiya Dövlət Kitabxanasının "Nikolay Rumyantsev" medalı təqdim olunub.

Sonda iştirakçı ölkələrin nümayəndələrinə Milli Kitabxananın Ehtiyat mübadilə fondundan kitablar hədiyyə edilib.

# Sərginin "fəxri yazar"ları ilə görüşlər

Xalq şairi Ramiz Rövşən VIII Bakı Beynəlxalq Kitab Sərgisinin "fəxri yazar"ı idi. Oktyabrın 8-də Bakı Ekspo Mərkəzində, sərginin "Xurşidbanu Natəvan" təqdimat zalında Ramiz Rövşənlə görüş və imza saatı keçirilib.






### "Kitaba olan sevginizə heyranam"

Xalq şairi görüşə toplaşanları salamlayaraq ədəbiyyat, poeziya, sənətlə bağlı qənaətlərini bölüşüb. Yeni nəsil, çağdaş mətnlər, şeir ruhu, ədəbiyyatın gücü və başqa məsələlər ətrafında fikirlərini bildirən Ramiz Rövşən kitaba, mütaliəyə yönələn marağın onu sevindirdiyini vurğulayıb: "Sizin kitaba olan sevginizə heyranam. Əslində mən belə düşünürdüm ki, indi kitab mütaliə edən yoxdur. Amma siz mənə yanıldığımı göstərirsiniz. Kitabı yazırıq ki, sevdiklərimizi saxlayaq, gördüklərimizi saxlayaq, zamanı saxlayaq. Şopenhauerin gözəl bir sözü var: "Poeziya zaman haqqında tarix kitablarından daha dəqiq danışır". Mən indiki gəncləri həddindən artıq çox sevirəm. Səbəb isə odur ki, dünyanın hər üzünü bilən, ayıq, öz daxilində prinsiplərini, mənəvi dəyərlərini saxlayan gənclərimiz çoxdur. Mənim onlara ən böyük arzum budur ki, onlar sevməyi sevsinlər...".

Görüş sual-cavab şəklində davam edib. Şairə poetik dünyası, şeirlərinin mövzusu, yaradıcılığının bir çox aspektləri ilə bağlı maraqlı suallar ünvanlanıb. Onların hər birini özünəməxsus üslubda cavablandıran Ramiz Rövşən "Mənə bir dəfə belə bir sual ünvanlandı: "Ramiz müəllim, axı sizi sevməyənlər də var". O zaman belə bir cavab verdim: "Bizi sevməyənlər bizi tanımayanlardır". Nə yaxşı ki, buradakı oxucular, yetişən gənclik məni tanıyanlardır. Belə auditoriya şair üçün hər zaman stimul, həyat qaynağıdır" deyib.

Daha sonra Ramiz Rövşən sevgi şeirlərindən nümunələr söyləyib, oxucular üçün kitablarını imzalayıb.

### Vətənpərvərlik və dünyəvilik mövzusunda sərbəst çıxış

VIII Bakı Beynəlxalq Kitab Sərgisinin daha bir "fəxri yazar"ı, şair, publisist Aqşin Yenisey 6 oktyabrda "Vətənpərvərlik və dünyəvilik mövzusunda sərbəst çıxış" adlı məruzəsini təqdim edib.

O, çıxışında ədəbiyyatın yaradıcılıq problemləri ilə bağlı bir sıra məqamlara toxunaraq, tarixilik və bəşərilik məsələləri, dünya ədəbiyyatında bunun işlənmə rakursları, prioritet mövzular ətrafında fikirlərini bölüşüb. Qloballaşmanın dünyanı düşündürən ən aktual problem olaraq qaldığını nəzərə çatdıran yazar xalqın milli simasının qorunmasında bəzi praktik işlər həyata keçirilməsinin labüdlüyünü nəzərə çatdırıb. Bildirib ki, bu gün qlobalizmə qarşı ən çox mübarizə aparan ölkələrdən biri Fransadır. Fransa bələdiyyələri ingilisdilli reklam lövhələrinin asılmasına görə yüksək cərimələr tətbiq edir. Fransız dilinin Amerika kinosu və mədəniyyətinin dilinə yenilməməsi üçün kinoteatrlarda Amerika filmlərinin nümayişi məhdudlaşdırılır.

Daha sonra Aqşin Yenisey hər bir xalqın milli özünəməxsusluğunun qorunmasının vacibliyi məsələsinə toxunub: "Düşünürəm ki, biz bəşəri dəyərləri itirməmək şərtilə öz milli kimliyimizi unutmamalıyıq. Çünki onun bizə qatdığı çox yüksək keyfiyyətlər var".

Oktyabrın 9-da sərgi çərçivəsində Aqşin Yeniseylə "Şeir axşamı" keçirilib. Müəllif görüşdə yaradıcılığından söz açıb, şeirlərini oxuyub.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli yazara nazirlik tərəfindən təsis olunan "Şuşa-270" döş nişanını təqdim edib.

Aqşin Yenisey Bakı Beynəlxalq Kitab Sərgisində beşinci dəfə iştirak etdiyini və ilk dəfə belə bir təltifə layiq görüldüyünü bildirib: "Bu mənim üçün çox gözlənilməz oldu. Şuşa şəhərinin adını daşıyan hər bir şey mənim üçün dəyərli və qiymətlidir. Çox qürurla mən bu döş nişanını öz üzərimdə daşıyacam. Bu dəyərə görə Mədəniyyət Nazirliyinə öz dərin təşəkkürümü bildirirəm".

# "Babək" baleti – Opera və Balet Teatrının şanlı Zəfərə sənət hədiyyəsi

Oktyabrın 8-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında 114-cü teatr mövsümünün ilk premyerası – görkəmli bəstəkar, Xalq artisti Aqşin Əlizadənin "Babək" baletinin nümayişi olub.



Akademik Opera və Balet Teatrında 1983-cü ildə Xalq artistləri Rəfiqə Axundova və Maqsud Məmmədovun quruluşunda tamaşaya qoyulan "Babək" baletinin günümüzlə səsləşən mövzusu onun yenidən səhnəyə qayıdışına səbəb olub. IX əsrdə xalq qəhrəmanı Babəkin ərəb istilaçılarına qarşı 20 ildən artıq davam edən mübarizəsi Azərbaycan tarixində önəmli yer tutur. Xalqımızın 30 ilə yaxın davam edən erməni işğalına son qoyulması ilə nəticələnən Vətən müharibəsinin ikinci ildönümündə və Zəfər Gününü qeyd etməyə hazırlaşdığımız ərəfədə bu əsərin yeni quruluşda nümayişi çox aktualdır.

Tamaşaya Xalq artisti Kamilla Hüseynova quruluş verib. O, həmçinin baletin ilk quruluş librettosuna qismən əlavələr edib.

Tamaşanın musiqi rəhbəri dirijorların A.Dorati adına müsabiqəsinin laureatı Orxan Həşimov, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi Tehran Babayevdir. Premyera tamaşasında gənc maestro orkestri bacarıqla idarə edib. İkipərdəli tamaşanın T.Babayev tərəfindən hazırlanan dekorasiyalarını truppanın və orkestrin peşəkar ifası tamamlayıb.

Tamaşada əsas rolları Əməkdar artistlər Anar Mikayılov (Babək), Makar Ferştandt (Əmir), Cəmilə Kərimova (Alnisə), balet artistlərinin Almaniyada keçirilən beynəlxalq müsabiqəsinin laureatı Ayan Eyvazova (Pərişad), gənc solist Seymur Qədiyev (Cavidan) ifa ediblər.

Premyerası uğurla gerçəkləşən "Babək" baleti Opera və Balet Teatrının xalqımızın şanlı Zəfərinə sənət hədiyyəsidir.

# Milli İncəsənət Muzeyində "açıq qapı" günləri

## İqlim dəyişikliyi ilə mübarizə üçün dünya səyahəti

Azərbaycan Milli İncəsənət Muzeyinin və UNICEF-in ölkəmizdəki nümayəndəliyinin birgə təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tərəfdaşlığı ilə uşaqlar üçün hazırlanmış "Hippolar: iqlim dəyişikliyi ilə mübarizə üçün dünya səyahəti" sərgisi davam edir.

Milli İncəsənət Muzeyindən verilən məlumata görə, sərgi ilə bağlı 9-30 oktyabr tarixində "açıq qapı" günləri elan edilib. Sərgi layihəsi gənc nəslə, uşaq və yeniyetmələrə faciəvi nəticələrdən xilas olmaq üçün iqlim dəyişiklikləri, ətraf mühitin çirkləndirilməsi problemləri və bu yolda atılması zəruri olan addımlar haqqında maarifləndirici xarakter daşıyır. Sərgidə Layen Haykensin şəxsi kolleksiyasından hazırkı iqlim dəyişikliyinin faciəvi nəticələrinin simvollarından birinə çevrilən canlıları – hippopotamları əks etdirən eksponatlar nümayiş etdirilir.

Layihə ekosistemlər dünyasının deqradasiyasının qarşısını almaq məqsədilə BMT-nin Ekosistemin Bərpası üzrə Onillik Proqramının (2030-cu ilədək) bir hissəsi olaraq hazırlanıb.

# “Zəngəzur – Türk dünyasının qapısı”

*əvvəli səh. 1-də*

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Akif Marifli Zəngəzur bölgəsinin qədim Azərbaycan torpağı olduğunu vurğulayıb, Zəngəzur dəhlizinin Azərbaycan, region ölkələri, Türk dünyası, eləcə də Avropa ilə Asiya arasında çox mühüm bir kommunikasiya körpüsü olacağını bildirib.




Ombudsman Aparatının əməkdaşı, Zəngəzurdan olan Azadə Novruzova ermənilərin Zəngəzurda həyata keçirdiyi etnik təmizləmə siyasəti, milli-mədəni irsimizin məhv edilməsi, saxtalaşdırılması, soydaşlarımızın öz doğma yurdlarından deportasiyası haqqında danışaraq tədqiqat əsərinin bu hadisələrin tarixinə işıq tutacaq vacib mənbə olacağını söyləyib.

Sonda çıxış edən Şuxrat Salamov nəşrin mütəxəssis, tarixçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulduğunu və kitabda Cənubi Qafqaz xalqlarının taleyində baş vermiş faciəvi tarixi hadisələr mənzərəsində siyasi proseslərin ətraflı təhlil edildiyini deyib. Bildirib ki, Zəngəzur dəhlizinin açılmasına tarixi ədalətin bərpası və bütün Türk dünyası üçün yeni bir mərhələnin başlanğıcı olacağına inanır.

# Vətən şəhidləri ilə ucalır

İki il öncə bu vaxtlar Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə 30 il düşmən tapdağında qalmış, yerlə yeksan edilmiş əzəli yurd yerlərimizin düşməndən azad olunması üçün oddan-alovdan keçirdi. Vətən oğulları qanları, canları bahasına ərazi bütövlüyümüzü bərpa edir, gözlərini qırpmadan, böyük ruh yüksəkliyi, ən əsası da əsir yurdun qurtuluş eşqi ilə şəhadətə yürüyür, qazi olurdular. Əmin idilər ki, şanlı Ordumuz bu haqq savaşında qalib gələcək. Elə də oldu...

Regional idarələrin əhatə etdiyi mədəniyyət müəssisələrində şəhidlərimizin əziz xatirəsi yad olunur, onların ailələri ziyarət edilir, qazilərimizlə görüşlər keçirilir.



Sabirabad Regional Mədəniyyət İdarəsi (RMİ) Sabirabad rayon Mədəniyyət Mərkəzinin Qaratəpə kənd Yaradıcılıq evində Azərbaycanın Milli Qəhrəmanları – Birinci Qarabağ müharibəsi şəhidi Mübariz Əhmədov (1963-1992) və Aprel döyüşlərində şəhid olan polkovnik-leytenant Murad Mirzəyevə (1976-2016) həsr olunmuş tədbir keçirilib. Tədbirdə regional idarənin məsləhətçisi Ağalar Ağammədov, Qaratəpə kənd icra nümayəndəsi İlham Həsənov və digərləri çıxış ediblər. Sonra Mədəniyyət Nazirliyinin sifarişi ilə “Salnaməfilm” Studiyası tərəfindən çəkilən, hər iki qəhrəmanın ömür yolundan bəhs edən “Mübariz” və “Komandir” filmləri nümayiş olunub.

***



Şabranın Borbor kəndində Vətən müharibəsi şəhidi Əlikram Şahbazlının xatirəsini əbədiləşdirmək məqsədilə inşa olunan abidə-bulaq kompleksi istifadəyə verilib. Əlikram Şahbazlı Vətən müharibəsində Suqovuşan və Hadrut qəsəbələri uğrunda qəhrəmanlıqla döyüşüb. Oktyabrın 6-da Talış kəndi istiqamətində şəhidlik zirvəsinə ucalıb. Göstərdiyi şücaətə görə ölümündən sonra 4 medalla təltif olunub.

***



Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova və regional idarənin əməkdaşları Vətən müharibəsi şəhidləri Fəxri Qəribzadə, Samir Ələkbərli və İlyas Şahvələdovun şəhadətlərinin ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib, ailələrinə baş çəkiblər.

Tərtər rayonunun Səhləbad kəndində Vətən müharibəsi şəhidi İntiqam Ağayevin xatirəsinə inşa edilən bulağın açılışı olub. Tədbirdə rayon rəhbərliyi, şəhid ailələrinin üzvləri, qazilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

***

Ağstafa RMİ Ağstafa rayon MKS-nin əməkdaşları Vətən müharibəsi şəhidi Nazim İsmayılovun doğum günü ilə əlaqədar ailəsini ziyarət ediblər. Görüşdə şəhidin döyüş yolu xatırlanıb, Vətən müharibəsindəki rəşadətindən bəhs edilib, xatirəsinin qəlblərdə əbədi yaşayacağı vurğulanıb.

***



Ağdaş RMİ Ağdaş Dövlət Rəsm Qalereyası və rayon MKS-nin 13 saylı şəhər kitabxanasının əməkdaşları Vətən müharibəsi şəhidi Yusif Nəbiyevin şəhadətə yüksəlməsinin ikinci ildönümü ilə əlaqədar ailəsinə baş çəkib, daha sonra məzarını və adına inşa edilmiş bulaq kompleksini ziyarət ediblər.

**Hazırladı: N.Məmmədli**

# “Qarabağa kitabla gedək!”

## VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində kampaniyaya dəstək aksiyası

Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə layihəsi olan “Qarabağa kitabla gedək!” kampaniyası davam edir. Oktyabrın 8-də VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində kampaniyaya dəstək məqsədilə nəşriyyatlar tərəfindən kitab hədiyyə etmə mərasimi keçirilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov 2021-ci ilin 15 yanvarında başlanan kampaniya barədə məlumat verib. Bildirib ki, otuz ilə yaxın işğal altında qalan rayonlarda ümumilikdə 975 kitabxana tamamilə dağıdılaraq talan edilib. Sözügedən kampaniya işğaldan azad edilən rayonlarda yenidən qurulacaq kitabxanaların fondunun formalaşmasına dəstək məqsədi daşıyır.

Direktor qeyd edib ki, bu layihəyə ilk qoşulan Xalq yazıçısı Elçin olub. O, şəxsi kitabxanasından 500-ə yaxın kitabı bu məqsədlə kitabxanaya təqdim edib. Sonra layihəyə xeyli sayda ziyalılar, yazıçı və şairlər, nəşriyyatlar, müxtəlif təşkilatlar qoşulub. Hazırda bu fondda 102 min nüsxədən çox kitab yığılıb, o cümlədən ötən il keçirilən Bakı Beynəlxalq Kitab Sərgisində təxminən 12 min nüsxə kitab toplanıb.




Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli çıxışında Qarabağda dağıdılmış mədəniyyət müəssisələrinin bərpasının nazirliyin qarşısında duran əsas vəzifələrdən biri olduğunu söyləyib. Şöbə müdiri hər kəsi bu kampaniyaya qoşulmağa dəvət edib.

Albaniyanın “Fan Noli” nəşriyyat evinin direktoru Rexhep Hida belə gözəl ideya üçün təşəkkürünü bildirib və kampaniyaya kitablar hədiyyə edib.

Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı layihəni dəstəklədiklərini bildirib və təşkilat adından 100-dən çox kitab hədiyyə edib. O, həmçinin dekabr ayında İstanbulda keçiriləcək beynəlxalq sərgidə Türkiyə nəşriyyatlarından ədəbiyyatların da toplanılması üçün bu layihəni orada davam etdirməyi təklif edib.

“İrs”, “Vektor”, “Apostrof”, “Çapar”, “İdeal Print”, “Alatoran”, “Mimta” və digər yerli nəşriyyatlar da “Qarabağa kitabla gedək!” kampaniyasına öz nəşrlərini hədiyyə edib.

# MEMİM Masallıda silsilə tədbirlər keçirib

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) müxtəlif yönümlü maarifləndirici layihələr həyata keçirməyə davam edir.

MEMİM və Masallı RMİ-nin birgə təşkilatçılığı ilə oktyabrın 4-də “Zərərli vərdişlərdən imtina” adlı maarifləndirici seminar keçirilib.

Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov və MEMİM-in direktoru Səadət Xələfbəyli tədbiri açaraq iştirakçıları salamlayıb, seminarın mövzusu haqqında məlumat veriblər.

İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cənub Regional Mərkəzinin rəhbəri Ziya İsmayılov, Masallı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Əntiqə Tağıyeva, rayon Polis Şöbəsinin yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili qrupunun baş inspektoru, polis kapitanı Samid Əliyev, Masallı “Gənclər evi” sosial xidmət müəssisəsinin direktoru Fuad Mənsimov və digərləri çıxış edərək ictimaiyyəti narkomaniya ilə birgə mübarizə aparmağa çağırıblar.






Vurğulanıb ki, bu problemdən çıxış yolu gənclər arasında sağlam həyat tərzinin təbliği, onların asudə vaxtlarının faydalı keçirilməsi, kütləvi mədəniyyət, təhsil və idman tədbirlərinə cəlb edilməsidir.

Daha sonra Masallı rayon Mədəniyyət Mərkəzində mövzuya dair “Bölgə” eksperimental teatr truppası tərəfindən səhnələşdirilmiş “Həyat tablosu” adlı tamaşanın premyerası olub. İnteraktiv formatda səhnələşdirilmiş pantomim tamaşası maraqla izlənilib.

Seminar çərçivəsində Masallı sənətkarlarının əl işlərindən və rəsm əsərlərindən ibarət sərgi təşkil edilib.

MEMİM tərəfindən Masallı rayonunda “Cıdır düzü” adlı intellektual turnir təşkil edilib. Turnirdə Lənkəran və Masallı Regional Mədəniyyət idarələrinin hər birindən 3 komanda iştirak edib. Oyunun qalibi Masallı RMİ üzrə “Zirvə” (Yardımlı) komandası olub.

Qeyd edək ki, bölgələrdə müxtəlif mövzularda keçirilən belə yarışmaların məqsədi mədəniyyət işçilərinin səriştə və peşə bacarıqlarının, dünyagörüşünün və komanda ruhunun inkişaf etdirilməsidir.

MEMİM və Masallı RMİ-nin birgə təşkilatçılığı, mədəniyyət könüllülərinin iştirakı ilə Masallı rayonunda XIX əsr memarlıq abidəsi olan Köhnə hamam ərazisində iməcilik də keçirilib. İməciliyin məqsədi insanlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini, habelə mədəni irsimizi təbliğ etməkdir. Təşəbbüsə rayon sakinləri də maraq göstəriblər.

# Konfrans, açıq dərs, seminar, yubiley, tamaşa...

Ağstafa RMİ-nin rəisi Nurəddin Mehdiyevin iştirakı ilə idarənin əhatə etdiyi müəssisələrin fəaliyyətinə həsr olunmuş seminar-müşavirə keçirilib. Müşavirədə çıxış edən idarə rəisi şanlı Qələbəmizin ikinci ildönümü münasibətilə silsilə tədbirlərin təşkil edilməsi, sosial şəbəkələr və mətbuatla əlaqənin təşkili, bəzi müəssisələrdə optimallaşdırma ilə əlaqədar görüləcək tədbirlər, musiqi məktəblərində keçiriləcək islahatlar, həmçinin mədəniyyət işçilərinin işə davamiyyəti, müəssisələrdə aşkarlanan problemlər və s. barədə fikir və iradlarını bildirib, tapşırıqlar verib.

***



Biləsuvar RMİ Neftçala rayon Heydər Əliyev Mərkəzi və “Regional İnkişaf” İctimai Birliyinin birgə təşkilatçılığı ilə “AZLİNG – 2022”: Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar” mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

70-dən çox dilçi alim və gənc tədqiqatçının qatıldığı konfransda Azərbaycan dilinin tədqiqi, xarici ölkələrdə dilimizin tədrisi, ana dili dərsliklərinə konseptual yanaşmalar, tərcümə problemləri, kompüter dilçiliyi və s. mövzular ətrafında məruzələr dinlənilib, müzakirələr aparılıb.

Sonda konfrans iştirakçılarına sertifikatlar təqdim edilib. Elmi konfransın materiallarının toplu halında çap etdiriləcəyi diqqətə çatdırılıb.

***

Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Yardımlı nümayəndəliyi və V.Məmmədov adına Yardımlı şəhər 2 saylı orta məktəbin birgə təşkilatçılığı ilə “Şuşa İli”nə həsr olunmuş “Zəfərin zirvəsi – Şuşa” mövzusunda tədbir keçirilib. Tədbirdə “Şuşa – 270”, “Heydər Əliyev dühası”, “Zəfər tariximiz” başlıqlı sərgilərə baxış olub.

***



Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzi və 8 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə “Heydər Əliyev: Azərbaycanın fəxri və xilaskarı” adlı açıq dərs keçirilib. Açıq dərsdə çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan tarixindəki əvəzsiz xidmətlərindən, onun xilaskarlıq missiyasından danışıblar. Sonda “Tarixin Heydər Əliyev dövrü” adlı film nümayiş etdirilib.

***

Şəki RMİ Oğuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə “Azərbaycanın haqq bayraqdarı Əhməd Cavad” adlı tədbir keçirilib. İstiqlal şairi Əhməd Cavadın (1892-1937) 130 illiyinə həsr olunan tədbirdə muzeyin direktoru Arizə Xuduyeva şairin həyat və yaradıcılığı haqqında məlumat verib. Sonra məktəblilər Ə.Cavadın bayrağımıza,



Vətənimizə həsr olunan şeirlərini söyləyiblər. Tədbirin sonunda sözləri Əhməd Cavada, musiqisi dahi Üzeyir Hacıbəyliyə məxsus olan “Çırpınırdın, Qara dəniz” mahnısı səsləndirilib.

Qaxingiloy, Qaxbaş kənd mədəniyyət evləri və Toppağ kitabxanasının birgə təşəbbüsü ilə “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” adlı tədbir keçirilib. Tədbirdə şagirdlər Şuşaya, Qarabağa, Vətənə həsr olunan şeirləri qiraət ediblər.

***

Bərdə RMİ Yevlax Kukla xalq teatrı tərəfindən “Güllü və Güloğlan” tamaşası nümayiş etdirilib. Bərdə rayon Mədəniyyət Mərkəzində nümayiş olunan tamaşanın quruluşçu rejissorları Əməkdar mədəniyyət işçiləri Zöhrə Adıgözəlova və Eldəniz Mustafayevdir. Tamaşadan sonra çıxış edən RMİ-nin rəisi Vəsilə Möhsümova yaradıcı heyətə təşəkkürlərini çatdıraraq gənc nəslin yetişməsində bu kimi tamaşaların müsbət rolundan bəhs edib.

***



Gəncə RMİ Gəncə şəhər MKS-nin 20 saylı kitabxana filialı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 881-ci ildönümü ilə bağlı sərgi təşkil edib.

MKS-nin 15 saylı kitabxana filialında isə yeniyetmə və gənclərin iştirakı ilə “Narkomaniyaya birgə yox deyək!” adlı tədbir keçirilib.

***

Yeni Azərbaycan Partiyası (YAP) Qusar rayon təşkilatı və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Xaçmaz RMİ-nin əhatə etdiyi Qusar rayon Uşaq incəsənət məktəbində “Narkomaniya və zərərli vərdişlərə qarşı mübarizədə sosial fəallıq” mövzusunda tədbir keçirilib. Tədbirdə Qusar Dövlət Ləzgi Dram Teatrının hazırladığı “Sönmüş talelər” tamaşasından narkoman gəncin faciəsini əks etdirən səhnə nümayiş olunub, iştirakçılara maarifləndirici broşürlər paylanılıb.

***

Sabirabad RMİ Şirvan şəhər Mərkəzi Kitabxanasında Xurşidbanu Natəvanın (1832-1897) 190 illik yubileyi münasibətilə “Xan qızı Natəvan” adlı tədbir keçirilib. Mərkəzi Kitabxananın Uşaq şöbəsinin müdiri Alma Cəfərova və Oxuculara xidmət şöbəsinin müdiri İlhamə İmanova şairənin Azərbaycan ədəbiyyatı tarixində xüsusi yeri olduğunu vurğulayıblar.

# “Sən azadsan!” – Gənclər Kitabxanası yeni nəşrini təqdim edib

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 5-9 oktyabr tarixində Bakı Ekspo Mərkəzində keçirilən VIII Bakı Beynəlxalq Kitab Sərgisi çoxsaylı təqdimatlardan biri də çərçivəsində C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının nəşrə hazırladığı “Sən azadsan!” kitabı ilə bağlı olub. Kitabda gənc yazarların Vətən müharibəsində şanlı Zəfərə həsr olunan şeir, esse və hekayələri toplanıb.

Oktyabrın 7-də gerçəkləşən təqdimatda Respublika Gənclər Kitabxanasının direktoru Aslan Cəfərov nəşrin ərsəyə gəlməsində iştirak edən hər kəsə təşəkkürünü bildirib. Qeyd edib ki, kitabın adı müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi müjdəsini Azərbaycan xalqına çatdırarkən dediyi “Əziz Şuşa, sən azadsan!” sözlərindən götürülüb.



Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli Azərbaycanın şanlı Zəfər tarixinə həsr olunan kitabların əhəmiyyətindən danışaraq, bu nəşrlərin gələcək nəsillərə bir örnək, xatirə olacağını qeyd edib.

Kitabın tərtibçisi və redaktoru Fərid Hüseyn topluda əsərləri yer alan gənc şair və yazıçılar haqqında məlumat verib. Bildirib ki, kitab Emin Pirinin “Sən azadsan!” şeiri ilə başlayır. Gənc yazarlar Şahanə Müşfiq, İntiqam Yaşar, Gülnar Səma, Nargis şeirlərini oxuyublar. Emin Piri, Ramil Əhməd azad Şuşaya səfərləri haqqında danışıblar.

Qeyd edək ki, kitabda Azərbaycanın şanlı Zəfər tarixi – 44 günlük müharibə mövzusunda 20-yə yaxın gənc yazarın əsərləri toplanıb. Kitabın layihə rəhbəri və ideya müəllifi Respublika Gənclər Kitabxanasının direktoru Aslan Cəfərovdur. Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid kitaba ön söz yazıb.

Qeyd edək ki, sərgi müddətində Gənclər Kitabxanasının stendini çoxsaylı oxucularla yanaşı, tanınmış elm, ədəbiyyat, mədəniyyət xadimləri də ziyarət ediblər. Kitabxananın əməkdaşları ziyarətçilərə stenddə sərgilənən incəsənət, tarix, bədii ədəbiyyat və s. sahələri əhatə edən kitablar haqqında məlumat veriblər. Kitabxana VIII Bakı Beynəlxalq Kitab Sərgisinin təşkilatçıları tərəfindən sertifikatla təltif edilib.

# Türkiyə səfirinin imza saatı

VIII Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 7-də Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcının “Yokuşun çocukları” kitabının yeni nəşrinin təqdimatı və imza saatı təşkil olunub.



Təqdimatda çıxış edən səfir Cahit Bağcı kitab bayramının təşkilinə görə Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib: “Azərbaycan kitaba verilən dəyər məsələsində ən öndə olan ölkələrdəndir. Əvvəlki sərgidə kitabımın ilk nəşrinin burada stendə imza saatını keçirmişdik, bu gün də növbəti nəşrin imza saatına toplanmışıq. Biz bu layihələrin davamlı olmasını arzulayırıq. Kitabı yaşatmaq çox önəmlidir. Kitab insanın ən yaxın dostudur. Əslində, kitabı rəqəmsal da oxumaq mümkündür, amma kitaba toxunmaq daha önəmlidir”.

Səfir qeyd edib ki, “Yokuşun çocukları” kitabında Türkiyənin 1970-80-ci illərdəki həyatından, keçdiyi çətinliklərdən danışılır. Kitab eyni zamanda sosial tarix və bioqrafik səciyyə daşıyır.

Daha sonra Cahit Bağcı kitabını tədbir iştirakçıları üçün imzalayıb.

# Xətai “Divan”ının Daşkənd nüsxəsi nəşr olunub



VIII Beynəlxalq Bakı Kitab Sərgisi çərçivəsində böyük Azərbaycan şairi, qüdrətli sərkərdə Şah İsmayıl Xətainin anadilli “Divan”ının Daşkənd nüsxəsi əsasında hazırlanmış nəşrin təqdimatı da keçirilib. Nəşr Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə işıq üzü görüb.

AMM-in direktoru Samir Abbasov Xətainin 535 illik yubileyi münasibətilə hazırlanan nəşrin Özbəkistan Elmlər Akademiyası Biruni adına Şərqşünaslıq İnstitutundakı Azərbaycana dair əlyazmaların tədqiqi əsasında ərsəyə gəldiyini bildirib.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli məsələyə tarixi aspektdən yanaşaraq Xətai “Divan”ının Daşkənd nüsxəsinin nəşrini mədəniyyətimizin, ədəbiyyatımızın dünyada tanıdılması, təbliği istiqamətində əhəmiyyətini vurğulayıb.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, tədqiqatçı-alim, professor Nizami Tağısoy, özbək şairə, “Kitab dünyası” qəzetinin baş redaktoru Xasiyyət Rüstəm Azərbaycan-Özbəkistan, mədəni-ədəbi münasibətlər haqqında danışaraq bu nəşrin Xətai irsinin tədqiqinə böyük töhfə olduğunu qeyd ediblər.

Kitabın tərtibçisi, filologiya üzrə fəlsəfə doktoru Kərimulla Məmmədzadə tədqiqat işində və nəşrin ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə AMM-yə minnətdarlığını bildirib.

# Kitab bayramında Respublika Uşaq Kitabxanasının təqdimatları




VIII Bakı Beynəlxalq Kitab Sərgisində zəngin stendi ilə iştirak edən F.Köçərli adına Respublika Uşaq Kitabxanası yeni nəşrlərin təqdimatlarını da keçirib.

Oktyabrın 7-də Respublika Uşaq Kitabxanası və “Təhsil” nəşriyyatının (nəşriyyat-poliqrafiya müəssisəsi) birgə layihəsi – uşaq yazarı Raziyyə Rəhimzadənin rus dilində çap olunmuş “Qədim Bakı haqqında əfsanələr” kitabının imza günü keçirilib.

Kitabda yazıçının 11 hekayəsi yer alıb. Müəllif öz hekayələrində bir sehrbaz kimi tarixi Odlar diyarının şəklinin xalçasını toxuyur.

Oktyabrın 8-də sərgi çərçivəsində Respublika Uşaq Kitabxanası və “Təhsil” nəşriyyatının tərəfdaşlığı ilə Tural Axundovun “Şuşa tarixin obyektivində” kitabının, “Mən Şuşanı çəkirəm” adlı virtual rəsm sərgisinin təqdimatı olub.

Tədbirdə Bakı şəhəri Yuri Kovalyov adına 229 saylı məktəbin şagirdlərinin ifasında “Azad Şuşa” kompozisiyası nümayiş olunub, Ağdam rayon Xan Şuşinski adına Uşaq Muğam Musiqi Məktəbinin şagirdləri muğamlardan parçalar oxuyublar.

Tural Axundov kitab barədə məlumat verib. Bildirib ki, kitab 3 hissədən ibarətdir və Şuşanın dünəni, bu günü və sabahı haqqındadır. Yazıçı-publisist Mustafa Çəmənli kitabla bağlı fikirlərini bölüşüb.

Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova “Şuşa İli” çərçivəsində məktəblilər arasında keçirilən rəsm müsabiqəsi haqqında məlumat verərək virtual sərgidə “Palitra” art studiyasının şagirdlərinin 60-dək əl işinin yer aldığını bildirib. “Mən Şuşanı çəkirəm” virtual sərgisi kitabxananın saytında təqdim edilib.

Oktyabrın 8-də sərgi çərçivəsində “Təhsil” nəşriyyatı, Respublika Uşaq Kitabxanasının və “Sultan” cizgi filmi studiyasının tərəfdaşlığı ilə yazıçı Sevinc Nuruqızının “Pıçıltı” kitabının təqdimatı da keçirilib. Kitab 2020-ci ilin Vətən müharibəsində Ermənistanın Gəncə şəhərində törətdiyi terrorun qurbanları olan uşaqlara ithaf edilib.

Əvvəlcə kitabla bağlı “Sultan” studiyasında çəkilmiş “Pıçıltı” tanıtım filmi və 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin “Çiçəyim” uşaq teatrının üzvlərinin ifasında “Pıçıltı” kompozisiyası nümayiş olunub.

Sevinc Nuruqızı bildirib ki, “Pıçıltı” kitabı bütün canlıların və cansızların məhvinə səbəb olan terrora “YOX” deyənlərin səsidir. Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova vurğulayıb ki, S.Nuruqızının əsərlərində uşaq dünyasına dair ən əhəmiyyətli məqamlar əksini tapır. “Pıçıltı” da belə əsərlərdən biridir.

“Təhsil” nəşriyyatının direktoru Tural Axundov, kitabın rəyçisi – AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Uşaq ədəbiyyatı şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Elnarə Akimova nəşr haqqında fikirlərini bölüşüblər.






Gözəl və maraqlı təqdimatlarla yadda qalan daha bir beynəlxalq kitab sərgisinə şahidlik etdik. Bu tədbir sayəsində biz kitabla bağlı adamlarla yanaşı, kitaba bağlı olanların da bayram ovqatına kökləndiklərini gördük...

Sevinirəm ki, kitaba kütləvi maraq yaranıb və burada gənclər üstünlük təşkil edir. Onlar zəruri ədəbiyyatlar, yeni elm, istehsalat, ixtisas sahələri ilə bağlı nəşrlərlə yanaşı, bədii ədəbiyyata da maraq göstərirlər. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 5-9 oktyabrda reallaşan kitab bayramı bir neçə gün ərzində istənilən oxucu üçün kitabı əlçatan etməyə çalışdı.

Sərgi qarşısına qoyduğu məqsədlərə çatdı. Çünki beş gün ərzində müxtəlif təqdimatlar, müzakirələr, görüşlər, imza saatları keçirildi, nəşriyyat-poliqrafiya sənayesinin hazırkı vəziyyəti, ümumilikdə kitab və onun nəşrindən oxucuya çatmasına qədər faydalı müzakirələr aparıldı.

### “Uşaq ədəbiyyatında Zəfər diskursu”

Sərginin bir sıra tədbir və təqdimatlarına qatılmaq imkanım oldu. Onlardan biri də oktyabrın 5-də baş tutan “Uşaq ədəbiyyatında Zəfər diskursu” mövzusunda müzakirə və şanlı Qələbəmizə həsr olunmuş uşaq kitablarının təqdimatı idi.

Müzakirənin moderatoru filologiya üzrə elmlər doktoru, AMEA Nizami adına Ədəbiyyat İnstitutu Uşaq ədəbiyyatı şöbəsinin müdiri Elnarə Akimova, qonaqlar uşaq yazarları Zahid Xəlil, Sevinc Nuruqızı, Qəşəm İsabəyli idi.

Elnarə Akimova çıxışında bu il səkkizincisi keçirilən Bakı Beynəlxalq Kitab Sərgisinin son iki ildə uşaq ədəbiyyatına geniş yer verilməsinin əhəmiyyətini qeyd etdi: “Builki sərgi “Şuşa İli” çərçivəsində reallaşır. Şuşanın 270 illiyidir, həmçinin iki ildir qala-şəhərimiz düşmən tapdağından azad olunub. Uşaq ədəbiyyatında bu mövzuda müəyyən mətnlər ortaya qoyulmaqdadır. Bura dəvət olunan uşaq yazarlarının hər üçü otuz ilə yaxın bir dönəmdə Qarabağ, Şuşa mövzusuna həssas yanaşan, yaradıcılığında mövzunu daim aktual saxlayan ziyalılardır”.

Daha sonra söz uşaq yazarlarına verildi. Zahid Xəlil Zəfər tariximizi əks etdirən “Dəmir yumruq” əsərinin ərsəyə gəlməsindən bəhs etdi, yeni əsər üzərində işlədiyini, tezliklə uşaqların görüşünə gələcəyini bildirdi. Sevinc Nuruqızı yeni çap olunan “Pıçıltı” və “Zəfər nağməsi – Şuşa” kitabları haqqında söz açdı.

Qəşəm İsabəyli yeni çap olunan “Seçilmiş əsərləri”nin birinci cildi haqqında danışdı. Orada yer alan Qarabağa, Şuşaya aid mətnlərə diqqət yönəltdi, bir neçə şeirini səsləndirdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova burada adıçəkilən kitabların hər birinin təqdimatını keçirəcəklərini dedi. Müzakirədə uşaq ədəbiyyatındakı bir sıra problemlərə də toxunuldu, təkliflər səsləndirildi.

### “Cavid hikməti: seçmə aforizmlər”

Elmi-kütləvi nəşrlərin təqdimatları da sərgi proqramını zənginləşdirən amillərdən idi. Bu sırada “Cavid hikməti: seçmə aforizmlər” kitabını xüsusi qeyd etməliyəm. Oktyabrın 7-də Hüseyn Cavidin Ev-Muzeyinin baş direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlının tərtibçisi və ön söz müəllifi olduğu “Cavid hikməti: seçmə aforizmlər” kitabının təqdimatı keçirildi.

Gülbəniz Babaxanlı çıxış edərək böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında imzaladığı sərəncama görə dövlət başçısına təşəkkürünü bildirdi. Qeyd etdi ki, təqdimatı keçirilən kitab ədibin ev-muzeyinin dahi sənətkarın yubileyi münasibətilə cavidsevərlərə bir ərmağanıdır. Oxucuların marağı nəzərə alınaraq sənətkarın əsərlərindən seçmə aforizmlər yeni redaksiyada, ələvələr edilərək ilk dəfə cib dəftərçəsi formasında nəşr olunub. Kitabda mütəfəkkir şairin insanlıq, haqq-ədalət, vətən, millət, qadın, məhəbbət və cəmiyyəti narahat edən aktual problemlərlə bağlı müdrik sözləri yer alıb. Topludakı aforizmlər ədibin “Ana”, “Maral”, “Şeyx Sənan”, “Şeyda”, “Uçurum”, “İblis”, “Afət”, “Peyğəmbər”, “Topal Teymur”, “Knyaz”, “Səyavuş”, “Xəyyam”, “İblisin intiqamı” pyeslərindən, “Azər” poemasından və məqalələrindən seçilib.

# Sözümüz hər zaman kitabdan düşsün...

## VIII Bakı Beynəlxalq Kitab Sərgisi nə ilə yadda qaldı?

### Akademikin Şuşaya naməsi...

Oktyabrın 7-də sərgi çərçivəsində AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimlinin “Şuşaname” kitabının da təqdimatı keçirildi.

Kitab haqqında məlumat verən müəllif “Şuşa İli”nə həsr olunan kitabda Azərbaycanın qədim mədəniyyət mərkəzi, Qarabağın incisi Şuşaya, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş Zəfərimiz və bir sıra başəri problemlərə həsr olunmuş şeirlərinin yer aldığını dedi.

Tədbirdə çıxış edən alimlər müəllifə uğurlar arzuladılar, onun səmimi hisslərinin təzahürü olan poeziya nümunələrində xalqımızın tarixinin, mədəniyyətinin, Qarabağ, Şuşa adlı incisinin mükəmməl şəkildə əks olunduğunu vurğuladılar.

### “Şaiq nümunə məktəbi”

Kitab bayramının maraqlı təqdimatlarından biri də ədəbiyyatımızda və pedaqoji fikir tariximizdə əvəzsiz yeri olan Abdulla Şaiqlə bağlı idi. “Şaiq nümunə məktəbi” adlı kitab təqdim olunurdu. Nəşr ədibin mənzil-muzeyi tərəfindən tərtib edilib, Mədəniyyət Nazirliyinin dəstəyi ilə çap olunub. Kitabın tərtibçiləri Ülkər Talıbzadə və Arzu Hacıyevadır.

Abdulla Şaiqin adı ilə bağlı olan nümunə məktəbinin yaranması, fəaliyyəti barədə geniş məlumatın yer aldığı kitabda həmçinin Şaiqin müəllim həmkarları, o məktəbdə oxuyan və digər təhsil müəssisələrində ondan dərs alan tələbələri haqqında informasiya, müəllimləri barədə xatirələr verilib. Kitabda Abdulla Şaiqin Mənzil-Muzeyinin əsas fondunun və arxivinin nadir materiallarından da istifadə edilib.

Giriş sözü söyləyən muzeyin direktoru Ülkər Talıbzadə yeni nəşr haqqında məlumat verdi, nümunə məktəbinin yaranma tarixindən bəhs etdi. O, Abdulla Şaiqin özünün xatirələrində qələmə aldığı mühüm fakt və fikirlərin də kitabda yer aldığını nəzərə çatdırdı.

Digər çıxış edənlər nəşrin önəminə diqqət çəkdilər, Cümhuriyyət dövründə məktəblərin milliləşdirilməsi işində Abdulla Şaiqin ilk anadilli sinifləri yaradılması yolunda diqqətəlayiq fəaliyyətindən danışıldı.

### Sərginin 140 yaşlı kitabları...




Kitab sərgisində diqqəti cəlb edən, öz tərtibatı və nümayişə çıxarılan nümunələri ilə seçilən stendlər də var idi. Onların arasında Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının (RETK) guşəsini qeyd edə bilərəm. Çünki onun nümayiş masasında hər hansı yüksək bədii-tərtibatlı nəşrlər, poliqrafik keyfiyyətli çap məhsulları yox, rəngləri çoxdan saralmış “kağız yığını” təəssüratı yarada biləcək kitablar sıralanırdı.

Nümunələr haqqında məlumat almaq üçün stendə yaxınlaşdım. Kitabxananın Kütləvi işlər və tərtibat şöbəsinin müdiri Amaliya Qənbərova nümunələr barədə ətraflı məlumat verdi. Bildirdi ki, ən böyük elmi-sahəvi kitabxanalardan biri olan RETK-nin fondunda ictimai-siyasi ədəbiyyat, elmi-texniki, sorğu materialları, dövri və davamlı nəşrlər, təcrübə-konstruktor işləri, tərcümələr, sənaye kataloqları, normativ-texniki sənədlər, ixtiralar, ixtiraçılıq-patent hüquqları haqqında ədəbiyyat, patentlər və s. qorunub saxlanılır: “Amma kitabxanamızı fərqli edən amil isə Azərbaycanın neft və qaz hasilatı ilə bağlı ədəbiyyatlardan ibarət fonda sahib olmasıdır. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra neft sənayesi həmişəlik milliləşdirildi və “Azneftkom”, onun texniki şöbəsində də kiçik bir məlumat kitabxanası yaradıldı. Bu haqda ilk məlumata “Azərbaycan neft təsərrüfatı” jurnalında rast gəlirik. 1920-ci ilə qədər Bakıda fəaliyyət göstərən texniki cəmiyyətlərin kitabxana fondları əsasında formalaşdırılmış kitabxanada 271 nüsxə kitab toplanmışdı ki, bu da o dövr üçün böyük rəqəm hesab olunurdu. Hazırda fondumuz isə 14 milyon nüsxədən çoxdur.

Gördüyünüz bu kitablar isə kitabxananın “qızıl fond”una daxil olan nümunələrdir. Əsasən neft sahəsi ilə bağlı olsalar da, burada memarlıq, elm və texnikanın digər sahələrini də əhatə edən nəşrlər də var. Bəzi kitablarımızın 130, 140 yaşı var”.

Kitabla oxucunun görüş yeri olan sərgi müxtəlif tədbirləri ilə bərabər, sənətkarları əl işləri, kitab çapı sənayesinin müxtəlif dövrlərini əhatə edən texniki avadanlıqların nümayişi ilə də diqqəti cəlb edirdi...

**Həmidə Rüstəmova**

№75 (1948)
12 oktyabr 2022
www.medeniyyet.az

# Əməkdar incəsənət xadimi, bəstəkar Ruhəngiz Qasımova vəfat edib



Azərbaycan musiqi mədəniyyətinə itki üz verib. Yaradıcılığı ilə geniş sənətsevər kütlələrin dərin rəğbətini qazanmış görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi Ruhəngiz Qasımova oktyabrın 9-da, 82 yaşında vəfat edib.

Ruhəngiz Nağı qızı Qasımova 1940-cı il iyulun 12-də Bakı şəhərində anadan olub. İlk musiqi təhsilini paytaxtdakı 2 saylı Uşaq musiqi məktəbində alıb. A.Zeynallı adına Bakı Musiqi Texnikumunun Musiqi nəzəriyyəsi və bəstəkarlıq şöbəsində, daha sonra isə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) Bəstəkarlıq fakültəsində təhsilini davam etdirib, 1973-cü ildə professor Cövdət Hacıyevin sinfini bitirib.

Ruhəngiz Qasımovanın özünəməxsus dəst-xətti, milli koloriti ilə fərqlənən yaradıcılığı müxtəlif musiqi janrlarını əhatə edir. O, "Məzəli əhvalat" operettası, "Mənim əsrim" simfonik poeması, "Qızıl oğlan" musiqili nağılı, kamera və simfonik orkestrlər üçün süitalar, çoxlu sayda mahnı və romanslar, eləcə də teatr və televiziya tamaşalarına musiqilərin müəllifidir.

Bəstəkarın yaradıcılığında mahnı janrı xüsusi yer tutur. "Anacan, dostum evlənir", "Utancaq oğlan", "Xəzər", "Yollar", "Azərbaycan", "Gənclik" və s. mahnıları Rəşid Behbudov, Gülağa Məmmədov, Xuraman Qasımova, Azər Zeynalov kimi görkəmli müğənnilərin, "Qaya", "Sevil" vokal-instrumental ansamblларının ifasında məşhurlaşaraq musiqisevərlərin məhəbbətini qazanıb.

Ruhəngiz Qasımova 1978-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, habelə uzun illər təşkilatın İdarə Heyətinin üzvü olub, "Mahnı" bölməsinə rəhbərlik edib.

Bəstəkarlıqla yanaşı dramaturq kimi də fəaliyyət göstərib. "Yollar görüşəndə", "Ömrün yolları", "Qonşu qonşu olsa" televiziya tamaşalarının libretto, həmçinin özünün bir sıra mahnılarının mətn müəllifidir. 2015-ci ildə ədəbi yaradıcılığına görə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilmişdi.

Respublikanın musiqi həyatında fəal iştirak edən Ruhəngiz Qasımova Azərbaycan Televiziya və Radiosunda musiqi redaktoru, "Azərbaycantelefilm" yaradıcılıq birliyində səs rejissoru kimi fəaliyyət göstərib. Həmçinin müxtəlif mahnı festivallarının, estrada müsabiqələrinin keçirilməsində fəal iştirak edərək, milli musiqi mədəniyyətimizin inkişafı naminə yorulmadan çalışıb.

Ruhəngiz Qasımovanın musiqi mədəniyyətimizin inkişafında xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, 2005-ci ildə respublikanın "Əməkdar incəsənət xadimi" fəxri adı, 2019-cu ildə "Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu" ilə təltif edilib, 2015-ci ildən Prezident təqaüdçüsü idi.

Yaradıcılığı milli musiqi mədəniyyətimizin mühüm hissəsini təşkil edən görkəmli bəstəkar, fəal ictimai xadim, gözəl insan Ruhəngiz Qasımovanın işıqlı xatirəsi xalqımızın qəlbində yaşayacaq.

Allah rəhmət eləsin.

**Azərbaycan Bəstəkarlar İttifaqı**

# "Mədəniyyət/Culture" jurnalının 55 illiyi qeyd olundu

Bu il Mədəniyyət Nazirliyinin nəşri olan "Mədəniyyət/Culture" jurnalının fəaliyyətə başlamasının 55 ili tamam olur. 1967-ci ildə "Mədəni-maarif işi" adı ilə nəşrə başlayan jurnal, 2012-ci ildən "Mədəni həyat", 2015-ci ildən "Mədəniyyət.AZ" adı ilə işıq üzü görüb, 2020-ci ildən nəşr həyatını "Mədəniyyət/Culture" adı altında davam etdirir.

Oktyabrın 7-də Bakı Ekspo Mərkəzində VIII Beynəlxalq Kitab Sərgisi çərçivəsində jurnalın 55 illiyi qeyd olundu.

"Mədəniyyət/Culture" jurnalının baş redaktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru Zöhrə Əliyeva nəşrin tarixindən, o cümlədən redaksiyanın son illəri əhatə edən fəaliyyətindən ətraflı söhbət açdı. Jurnalın çap və elektron versiyası, müxtəlif rubrikaları, dizaynı, xüsusi buraxılışları haqqında slayd-şou ilə geniş təqdimat edildi. Vurğulandı ki, jurnal Azərbaycanın bütün regionlarında yayılır.

"Mədəniyyət/Culture" həmçinin Ali Attestasiya Komissiyasının elmi nəşrlər siyahısına daxil edilib və hər sayında Azərbaycan, eləcə də ingilis və rus dillərində elmi məqalələr dərc olunur. Bir çox alimlərimiz öz məqalələrini jurnalın səhifələrində görmək istəyirlər. Nəşrin rubrikaları mütəmadi olaraq yenilənir. "Qarabağ Azərbaycandır!", "Səhnədən hərb meydanına", "Mədəniyyətdən əbədiyyətə", "Multikulturalizm", "Ədəbiyyat", "Musiqi", "Teatr" və s. rubrikalarda jurnalın geniş mövzu dairəsi əhatə olunur.

Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Məcid əlamətdar yubileylə bağlı jurnalın kollektivini təbrik etdi. Vurğuladı ki, baş redaktor tərəfindən edilən təqdimat kollektivin öz işinə böyük şövq, həvəs və məsuliyyətlə yanaşdığını göstərir.




Ədəbiyyatşünas, professor Asif Rüstəmli də təbriklərə qoşularaq bildirdi ki, Azərbaycanın mətbuat tarixinin ilk dövrlərində çap olunan jurnalların çoxunun ömrü uzun olmayıb. "Mədəniyyət/Culture" jurnalının 55 yaşı çox dolğun yaşdır və böyük uğurdur. Jurnal yalnız Azərbaycan mədəniyyətini əhatə etmir, daha geniş çərçivədə özünü təqdim edir.

Musiqişünas, Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə, Əməkdar jurnalist, professor Qulu Məhərrəmli də jurnalın əməkdaşlarına xoş arzularını bildirdilər. Hər iki natiq nəşrin indiki səviyyəyə çatmasında baş redaktor Zöhrə Əliyevanın rolunu xüsusi qeyd edərək, onun vaxtilə Azərbaycan Televiziyasındakı fəaliyyətini, mədəniyyətlə bağlı hazırladığı verilişləri də yada saldılar. "XX əsrin əvvəllərindən bu yana açılan qəzetlər və təşkilatların adında iki söz daha çox vurğulanır – maarif və mədəniyyət. Maariflə mədəniyyət bir yerdə olanda isə daha gözəl olur. Bu işləri ərsəyə gətirən yaradıcı kollektivə təşəkkür edirəm", – deyə Qulu Məhərrəmli vurğuladı.

Tədbirdə daha sonra jurnalın daimi yazarlarından filologiya üzrə fəlsəfə doktoru, şair Akif Azalp müəllifi olduğu "Xarıbülbül" şeirini söylədi.

Sonda Zöhrə Əliyeva iştirakçılara təşəkkürünü bildirdi, xatirə şəkilləri çəkdirildi.

# Üzeyir bəyin ədəbi-mədəni irsi əbədiyaşar və həmişə aktualdır

## "Üzeyir Hacıbəyli. Seçilmiş əsərləri" kitabının təqdimatı keçirildi

5-9 oktyabr tarixində keçirilən VIII Bakı Beynəlxalq Kitab Sərgisi bir-birindən maraqlı tədbir və təqdimatlarla yadda qaldı.

Oktyabrın 6-da sərgi çərçivəsində Bakı Ekspo Mərkəzində "Üzeyir Hacıbəyli. Seçilmiş əsərləri" kitabının təqdimatı keçirildi.

Kitabın tərtibçisi və redaktoru Kərim Kərimli dahi bəstəkarın nəşrdə yer alan bu fikirlərini diqqətə çatdırdı: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər...".

Qeyd olundu ki, Azərbaycan xalqının böyük oğlunun qələmindən çıxan bu cümlələr onun sanki özü haqqında yazılıb. Üzeyir bəy Azərbaycan mədəniyyətinin və incəsənətinin simvollarından biridir. Onun ədəbi-mədəni irsi əbədiyaşar və həmişə aktualdır. Bəstəkarın seçilmiş əsərlərindən ibarət bu kitab da Prezident İlham Əliyevin sərəncamı ilə elan edilən "Şuşa İli"nə bir töhfədir. Kitabda Üzeyir Hacıbəylinin məqalələri, felyetonları, açıq məktubları, miniatürləri, komediyaları və s. toplanılıb.

Daha sonra müstəqil "Şah Mat" teatrının aktyorları tərəfindən Üzeyir Hacıbəylinin "Müalicə" səhnəciyi (rejissor Mir Qabil Əkbərov, aktyorlar Cavid Cavadzadə, Orxan Abışov) canlandırıldı.

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov dahi bəstəkarın yaradıcılığından danışdı, kitabın çapına görə "TEAS Press" nəşriyyat evinə təşəkkürünü bildirdi.




Çıxışlardan sonra Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyindən videogörüntülər nümayiş etdirildi.

Sonda Azərbaycan Dövlət Xor Kapellasının solisti Fidan Rüstəmova bəstəkarın "Arşın mal alan" operettasından Gülçöhrənin ariyasını ifa etdi.

**N.Məmmədli**

# BXA-da "Zəfər yolu"nun müzakirəsi



Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının "Zəfər yolu" tamaşasının müzakirəsi keçirilib. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Qələbəyə həsr olunan tamaşanın müəllifi və quruluşçu rejissoru, Xalq artisti Azər Paşa Nemətov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimidir.

Müzakirə BXA-nın İncəsənət fakültəsinin Sənətşünaslıq, İctimai fənlər kafedraları və Kitabxana-informasiya mərkəzinin təşkilatçılığı ilə gerçəkləşib.

Tədbir şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sənətşünaslıq kafedrasının müdiri Şəhla Əliyeva, həmin kafedranın professoru, Əməkdar incəsənət xadimi Rafiq Sadıxov və Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının ədəbi hissə müdiri Çingiz Ələsgərov "Zəfər yolu" tamaşasını təhlil ediblər.

44 günlük Vətən müharibəsində N saylı hərbi hissədə kəşfiyyat bölük komandiri, mayor Elnur İsayev və könüllü olaraq Füzuli, Xocavənd və Kəlbəcərin azad olunmasında iştirak etmiş BXA-nın III kurs tələbəsi Valeh Mirzəzadə döyüş yollarından söhbət açıblar. Şəhid və qazilərimizin keçdiyi qəhrəmanlıq yolunu əks etdirən video nümayiş etdirilib.

Sonda Kitabxana-informasiya mərkəzinin müdiri İradə Ağayeva çıxış edərək Vətən müharibəsinin tariximizin şanlı salnaməsi olduğunu vurğulayıb, bu kimi tədbirlərin əhəmiyyətindən bəhs edib.

# "44 gün – tarixi Zəfər" çoxcildliyinin növbəti təqdimatı

Bakı Ekspo Mərkəzində Mədəniyyət Nazirliyinin Respublika Xatirə Kitabı Redaksiyası tərəfindən çap edilən "44 gün – tarixi Zəfər" adlı üçcildliyin I cildinin ("A-Ə" hərfləri üzrə) təqdimatı keçirildi.

Oktyabrın 6-da VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində gerçəkləşən tədbirdə çıxış edən Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova bildirdi ki, Azərbaycan xalqı mübariz xalqdır və müharibələr onu sarsıda bilməyib. Çünki bu xalq tarixin müxtəlif mərhələlərində yüzlərlə savaş görüb.

Vətən müharibəsində Qələbəmizdən danışan N.Məmmədova dedi ki, torpaqlarımızın düşmən işğalından azad edilməsi artıq zərurətə və mənəvi ehtiyaca çevrilmişdi. Vətən müharibəsi qəhrəman oğulların sayəsində 44 günə bunu reallığa çevirdi. Vətən uğrunda şəhid və qazi olan oğullarımızın qəhrəmanlıqları xalqımızın yaddaşına ədəbi yazılıb...".

Kitab haqqında məlumat verən baş redaktor ilk təqdimat mərasiminin Bakıda, ikincisinin Gəncə, üçüncüsünün isə Masallıda keçirildiyini bildirdi: "44 gün – tarixi Zəfər" kitabının I cildində min nəfərə yaxın döyüşçü – Aprel döyüşlərində, Tovuz hadisələrində, həmçinin Vətən müharibəsində həlak olmuş şəxslər barədə ensiklopedik məlumat verilib.

Daha sonra Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşı Azadə Novruzova, "Mədəniyyət/Culture" jurnalının baş redaktoru Zöhrə Əliyeva və digərləri çıxış edərək kitab haqqında fikirlərini söylədilər.

Qeyd olundu ki, Respublika Xatirə Kitabı Redaksiyası "Bakı-xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz!" seriyasından bədii-publisistik kitabların nəşrini də həyata keçirir. Tədbir çərçivəsində bu seriyadan nəşr edilmiş "El harayına can deyən şəhid Elcan" kitabının da təqdimatı oldu.

Vətən müharibəsi şəhidi Elcan Muradov haqqında kitabın müəllifi Elvin Arifoğlu, redaktoru Kəmalə Mirzəyevadır. Kitab "Azəri" poliqrafiya müəssisəsində çap olunub.

**Nurəddin**

# "Xəzərin suyunda çox göz yaşım var..."

Sovet rejiminin 30-cu illər repressiyası əsasən milli özünüdərkə xidmət edənləri, xalqın gələcəyi üçün çalışanları, ictimai-mədəni fəalları hədəfə almışdı. Şair, pedaqoq, ədəbiyyatşünas və mətbuat xadimi Əmin Abid də ömrünü Vətəni və xalqı üçün yaşayan ziyalılardan idi. Buna görə də repressiyanın cəngindən qurtula bilməzdi...

Əmin Mütəllib oğlu Əhmədov (Abid) 1898-ci ilin bir payız günündə Bakıda ziyalı ailədə dünyaya göz açıb. İbtidai təhsilini anası Reyhan xanımın evdə açdığı məktəbdə alır. Sonra şəhərdəki III Aleksandr (oğlanlar) gimnaziyasında təhsilini davam etdirir.

Ali təhsil almaq üçün 1914-cü ildə Türkiyəyə getmək istəyir. Ancaq I Dünya müharibəsinin başlanması buna mane olur. O, qardaşı şair Ələbbas Müznibin naşiri və redaktoru olduğu "Dirilik" və "Babayi-Əmir" jurnallarında işə düzəlir. Müxtəlif imzalarla hekayə, şeir, məqalə və tərcümələr dərc etdirir. 1918-ci ildə ilk milli və müstəqil dövlətimiz olan Azərbaycan Xalq Cümhuriyyəti qurulur. Bununla digər azərbaycanlı gənclər kimi, onun da xaricdə ali təhsil almaq arzusu gerçəkləşir. İstanbul Universitetinin Ədəbiyyat fakültəsinə qəbul olunur. Tələbəlik dövründə "Azərbaycan türklərinin ədəbiyyat tarixi" adlı monoqrafik əsərini yazır. 1920-ci ildə Cümhuriyyət süqut edir, vətəndən gələn acı xəbərlər onun yaradıcılığında da özünü göstərir. "Yeni Qafqaz", "Azəri-türk", "Odlu yurd" və digər jurnallarda "Gültəkin" təxəllüsü ilə şeirlər dərc etdirir. Sibir sürgünlərinə, təqib və təhqirlərə qarşı etiraz səsini ucaldır. Şairin Türkiyədə qələmə aldığı şeirlər siyasi mühacirlərin köməyi ilə dərc olunan "Buzlu cəhənnəm" adlı kitabında əksini tapır.

Əmin Abid 1927-ci ildə Azərbaycana qayıdır, xüsusilə Bakıda başqa bir ovqatla qarşılaşır. İstanbula oxumağa getdiyi zaman milli şüur yüksək, xalqda özünüdərk hissləri güclü idi. İndi isə o, bunların tamam əksini müşahidə edir. Sovet rejiminin apardığı yadlaşdırma, milli dəyərləri heçə endirmə siyasətinin, müstəqil düşüncə sahiblərinin təqib edilməsinin şahidi olur. Qələmini süngüyə çevirərək özünü odlara-alovlara vurur:

*Xəzərin suyunda çox göz yaşım var,*
*Bağrına yaslanmış dərdli başım var.*
*Dünyaya gəldim mən – torpağım oldun,*
*Altaylardan endim – durağım oldun...*

Əmin Abid bolşeviklərin açıq təqib və təhdidlərindən sarsılsa da, yüksək tədqiqatçılıq qabiliyyəti ilə mənsub olduğu xalqın ədəbiyyatını, folklorunu araşdırmaq işində həvəsdən düşmür. Əksinə, səylərini daha da artırır. Bakı Dövlət Universitetində işə düzəlir. Pedaqoji fəaliyyətlə yanaşı, qəzet və jurnallarda müasir və klassik ədəbiyyata, şifahi xalq yaradıcılığına dair elmi məqalələr dərc etdirir. Tədris ocaqlarında, dərnəklərdə "Oğuznamə", "Azərbaycan ədəbiyyatının başlanğıcı" mövzularında məruzələrlə çıxış edir. "Azərbaycan türklərinin ədəbiyyat tarixi", "Türk ədəbiyyatında bayatı-mani növü", "Bayatının türk xalqları ədəbiyyatında mövqeyi", "Azərbaycan ədəbiyyatının qədim abidələrindən" monoqrafik əsərləri, eyni zamanda "Kitabi-Dədə Qorqud"un mətni haqqında məlumat", "XVII əsr Azərbaycan ədəbiyyatı", "Ədəbiyyatımız tarixində Sabirin mövqeyi", "Mirzə Şəfi haqqında aparılan tədqiqlərə bir baxış", "Türk el ədəbiyyatına elmi bir baxış ("Oğuznamə")" kimi məqalələri mətbuatda dərc olunur. Gərgin elmi axtarışları nəticəsində Məhəmməd Füzulinin "Söhbətül-əsmar" əsərini aşkar edir və elm aləminə tanıdır.

Alimin yaradıcılığının ən maraqlı səhifələri folklorumuzla, qədim qaynaqlarımızla bağlı olub. Mənbələrdə göstərilir ki, Əmin Abidin fikrincə, qədim türk dastanlarının ahəngdar mətni – vurğunun cümlələrin sonuna salınması, cümlə və ifadələrin təkrarı və s. zaman keçdikcə cilalanaraq heca vəznli şeiri formalaşdırıb. O, qədim şeirlərimizi "vəznli şeir" adlandırıb. Fikirlərini əsaslandırmaq üçün "Kitabi-Dədə Qorqud" dastanının Drezden kitabxanasında saxlanılan nüsxəsindən nümunələr verib. Bu dastanın müstəqil bir əsər deyil, "Oğuznamə"nin tərkib hissəsi olduğunu bildirib.

Əmin Abidə görə, vəznli şeirdən tədricən heca vəzni yaranıb. İlk nümunə kimi Mahmud Kaşğarlının "Divani-lüğət it-türk" əsərində qorunub saxlanılan atalar sözlərini misal göstərib. O, bununla da kifayətlənmir. Daha qədim qaynaqları önə çəkir. Orxon-Yenisey abidələrində də 7 hecalı şeir şəklinin olduğunu söyləyir və ondan nümunələr verir.

Araşdırmalarda qeyd edilir ki, Cümhuriyyətin bolşeviklər tərəfindən işğalına etiraz olaraq yazdığı üsyankar şeirlər, xüsusilə gənclər tərəfindən maraqla qarşılanır. Mühacirətdə olan ziyalılarımız isə onun yaradıcılığını böyük həyəcanla izləyirlər. Türkiyədə və digər ölkələrdə sığınacaq tapmış Cümhuriyyətin hökumət üzvləri Gültəkinin şeirləri ilə nəfəs alır və onun milli azadlıq ruhlu əsərlərini yüksək qiymətləndirirlər.

Mübariz şair gizli şəkildə yayılan vətənpərvərlik mövzusundakı şeirləri ilə gənc nəslin milli azadlıq mübarizəsi ruhunda yetişməsində önəmli rol oynayır. Həmin şeirlərin birində müəllif işğalçı bolşevik rejiminə, müstəmləkə zülmünə qarşı etirazını belə ifadə edir:

*...Qaldıqca ruslarda diyarım mənim,*
*İntiqam olacaq şüarım mənim.*

Əmin Abid düşmənlərdən intiqamını gəncləri milli azadlıq uğrunda mübarizəyə hazırlamaqla alırdı. O, millət sevgisinə, vətənpərvərliyinə görə təqib edilir və işdən çıxarılır. Eyni zamanda mətbuatda tənqid hədəfinə çevrilir. Belə bir çətin şəraitdə açıq mübarizənin mümkünsüzlüyünü görür və elmi mübarizə yolunu seçir. Çox çətinliklə də olsa, qədim və orta yüzilliyin qaynaqlarını araşdırır. Əldə etdiyi nailiyyətləri sistemləşdirməyə çalışır. Amma həyatını repressiya tufanından xilas edə bilmir. Adı türk millətçilərinin siyahısına salınır. Maarif sahəsində aparılan "təmizləmə" əməliyyatı əsasən türk ədəbiyyatı, coğrafiya və tarix müəllimlərinə qarşı yönəldilirdi. Bundan sonra onun Bakıda işləməsi daha da çətinləşir. Məcburiyyət qarşısında qalan alim 1929-1934-cü illərdə Ağdaş, Quba və Ağdam rayonlarında müəllim işləyir.



Stalin diktaturası minlərlə günahsız insan kimi Əmin Abidi də qara kölgə kimi izləyirdi. 14 iyul 1938-ci ildə həbs edilir. Türkiyəyə casusluqda, gənclər arasında pantürkizmi təbliğ etməkdə günahlandırılan millətsevər ziyalı həmin ilin oktyabrın 21-də güllələnir.

**Savalan Fərəcov**

# İşini bilən insan

## Kinooperator Şərif Şərifov hər filmin özünəməxsus təsvir həllini tapırdı

Sənətkarlar haqqında yaradıcılıqları danışır. Əməkdar incəsənət xadimi, kinooperator Şərif Şərifovun (12.10.1938 – 26.9.2007) ekranlaşdırdığı filmlər də onun zəngin təfəkkürünün, geniş dünyagörüşünün əksi kimi həyat yolunu, sənət biliciliyini müəyyənləşdirib. 69 illik ömrünün təxminən 40 ilindən çoxunu Azərbaycan kinosuna həsr edən sənətkarı anadan olmasının 84-cü ildönümündə həmkarlarının xatirələrinə və kino fəaliyyətinə nəzər salaraq yad edirik.



Şərif Şərifov hələ uşaq yaşlarından foto sənətinə vurulub. Bu vurğunluq onu "Azərbaycanfilm" Kinostudiyasına gətirib. 20 yaşında operator assistenti kimi fəaliyyətə başlayıb. Təcrübə prosesində görkəmli sənətkarlardan peşə sirlərini öyrənib. 1964-1970-ci illərdə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsil alması sənət istiqamətini dəqiqləşdirib.

Kino fəaliyyəti dövründə 60-dan çox filmdə işləyib. Operator assistenti kimi iki sənədli ("Azərbaycan mədəniyyətinin baharı", "Bizim Azərbaycan"), üç bədii ("Koroğlu", "Böyük dayaq", "Yenilməz batalyon") filmdə, sonra isə ikinci operator kimi bir sıra bədii ("Uşaqlığın son gecəsi", "Şərikli çörək", "O qızı tapın", "Ən vacib müsahibə") və sənədli filmlərdə görkəmli rejissor və operatorlarla çalışıb. "Var olun, qızlar..." bədii filmində quraşdırılmış səhnələrin operatoru kimi çalışıb, rejissor-operator kimi "Anam Kür" (1993) qısametrajlı sənədli film çəkib.

Operator kimi yaradıcılıq filmoqrafiyasını daha çox sənədli filmlər təşkil etsə də, sənət biliciliyini bədii ekran əsərlərində də təsdiqləyib. Müxtəlif mövzuları əhatə edən filmlərdə hər janrın xüsusiyyətinə uyğun təsvir növü fonunda məzmunun mahiyyətini əhatəli formada çatdırıb, personajların xüsusiyyətlərini xarakterizə edib, maraqlı yaradıcılıq nümayiş etdirib. "Solmaz bir bahar kimi" filmi "Azərbaycan komsomolu" mükafatına, "Anam Kür" filmi akademik Həsən Əliyev adına mükafata, "Əsrin müqaviləsi" filmi "Humay" mükafatına layiq görülüb.

On beş ilə yaxın Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) pedaqoji fəaliyyət göstərən sənətkar dərs vəsaiti kimi "Kino çəkilişi texnikası", "Televiziya və onun texnologiyası", "Kinofilm və televiziya proqramlarının istehsalında kompüter texnologiyasının tətbiqi" adlı kitablar yazıb.

Əməkdar incəsənət xadimi, ADMİU-nun professoru **Cəmil Quliyevin** xatirələrində ustad sənətkarı daha yaxından tanıyırıq: "Şərif Şərifovu 1982-ci ildən tanıyırdım. O zaman mən "Azərbaycanfilm"də kurs işi çəkirdim. Şərif müəllim həmin vaxtlarda quruluşçu operator kimi çalışırdı və bizim filmin ərsəyə gəlməsində böyük rolu oldu. Bir müddət sonra onunla birlikdə ADMİU-da çalışdım. O, çox təvazökar, sadə, bilikli pedaqoq idi, kinooperator fənnini tədris edirdi. Sonra Türkiyədə pedaqoji fəaliyyət göstərdi. Qayıtdıqdan sonra yenə pedaqoji fəaliyyətini davam etdirdi.



Universitetdə dörd ildən bir yeni kurs gəlirdi. Şərif müəllimin kinooperator emalatxanasından üç kurs tələbələr təhsil aldılar. Çox bacarıqlı, istedadlı tələbələri yetişdi. Bu gün də həmin tələbələr müxtəlif televiziyalarda, kinostudiyada çalışırlar. Bu da təbiidir, çünki Şərif müəllim Moskvada Kinematoqrafiya İnstitutunu bitirmişdi, zəngin peşə biliyinə malik idi. Həmçinin uzun illər görkəmli Azərbaycan kinooperatorları Teyyub Axundov, Arif Nərimanbəyov, Əlisəttar Atakişiyev, Xan Babayev və digərləri ilə birlikdə çalışmışdı.

Quruluşçu operator kimi o, bir neçə bədii, o cümlədən "Qərib cinlər diyarında", "Əzablı yollar" (Vladimir Sapojnikovla birgə) və digər filmlərdə çalışıb. Bu filmlərin bədii təsvir həllinə, nağıl poetikasına, stilinə uyğun təsvir mədəniyyəti yaradıb, maraqlı rənglərdən istifadə edərək təsirli kompozisiyalar qurub. Sonrakı işlərində də özünəməxsus yaradıcılığı ilə seçilib. İşıq-kölgə sistemi ilə çox gözəl işləyirdi. İşini bilən operator kimi janrı çox gözəl hiss edirdi, xüsusiyyətlərini başa düşürdü. Buna görə də hər bir filmin özünəməxsus təsvir həllini tapırdı. Sənət biliciliyi onun təhsilindən, sənətə olan sevgisindən irəli gəlirdi...".

Əməkdar artist **Ötkəm İsgəndərovun** bələdçiliyi ilə operatorun sənət yolunu izləyirik: "Şərif Şərifovla "Əzablı yollar" və "Sifarişçi" filmlərində işləmişəm. Çox mədəni, mehriban insan idi. Bir-birimizə çox hörmət edirdik. İşinə olduqca məsuliyyətlə yanaşırdı, hər şeyi dəqiqliklə yoxlayırdı. Yadımdadır, "Əzablı yollar" filminin çəkilişində qardaşların quyuya tullanması səhnəsində hər şey dəqiqliklə ölçülüb-biçilmişdi. Çəkilişi də Şərif müəllim aparırdı. Ortancıl qardaş Xanməmmədi oynayan ukraynalı aktyor Viktor Demirtaş quyuya düz tullanmadığına görə ayağı quyunun kənarına dəydi və sındı, quyudan onun qışqırtısı eşidildi. Bu an Şərif müəllimin ürəyi getdi və yıxıldı. Onu özünə gətirdik. Həyəcanından əsirdi. İşinə nə qədər ciddi yanaşsa da, tələbkar olsa da, ürəyiyumşaq, həssas insan idi.

Sonralar onunla ADMİU-da birlikdə çalışdıq. Metodik tövsiyələr yazırdı. Hərdən mənim də bu barədə fikrimi soruşurdu. Universitetin rəhbəri Timuçin Əfəndiyev onu və digər üç müəllimi İstanbula iki il operator sənətindən dərs deməyə göndərdi, orda da öz peşəsini ustalıqla tədris etdi. Hər mənada işini bilən, gözəl insan idi...".

Şərif müəllimin sənət biliciliyi ilə yanaşı yüksək mənəvi dəyərlərə malik olması, nümunəvi şəxsi keyfiyyətləri ətrafdakılarla münasibətini asanlaşdırır, həmçinin ekran obrazlarının fərdi keyfiyyətlərini duyaraq lentə köçürməsinə imkan yaradırdı. Həyatı bilən, insan psixologiyasını kamerasının gözü ilə xarakterizə və təqdim edən operatorun peşə bilgisini təsdiqləyən kadrlar ekran əsərlərinin baxımlılığını artırır, kadrların dolğunluğunu təmin edir. Müxtəlif janrlı filmlərdə natura və dekorasiya təsvirlərini məzmuna uyğun şəkildə lentə köçürən operator işıqlandırma sistemindən məharətlə istifadə edərək müxtəlif rakurslu çəkilişlər vasitəsilə ekran hadisələrinin gerçəkliyinə zəmin yaradır, filmləri sevdirməyə nail olurdu.

Operatorun quruluş verdiyi "Yol əhvalatı" (Ələsgər Ələkbərovla birgə) kinokomediyasında hadisələri müşayiət edən çəkilişlər diqqətimizi çəkir. Sərnişin daşıyan təyyarənin havaya qalxması, uçuş kadrları, təyyarənin məcburən şəhərə enmə səbəbini xarakterizə edən görüntülər fonunda qoyunların vuruşması, sərnişinlərin təlaşı və yaxud filmin baş qəhrəmanı Mustafanın yük maşınını Paşadan xilas etmə cəhdi, onu təqib etməsi, sürətlə irəliləyən maşında tərəflərin savaşması, yol hərəkəti qaydalarını kobudcasına pozması, maşının binaya çırpılması, sakinlərin həyatının təhlükə ilə qarşılaşması və digər kadrlar mövzunun sosial mesajını dəqiqləşdirir, meşşan, tamahkar insanların ətrafdakılar üçün təhlükəli olduğunu göstərir. Operator sənətinin incəlikləri fonunda hər bir kadrın vacib xüsusiyyəti çatdırılır, personajların fərdi cəhətləri, həyat mövqeləri aydınlaşır.

Göründüyü kimi, hər bir kadrın təsvir həlli, məzmun tamlığı operatordan peşəkarlıqla yanaşı çeviklik tələb edir. Janra müvafiq olan ekran poetikasının təsvir mədəniyyətini dəqiqliklə yaradan operatorun filmoqrafiyasındakı janr (bioqrafik, tarixi-müharibə, dram, idman, nağıl və s.) müxtəlifliyinin və sənət uğurunun əsas səbəblərindən biri də insanlarla xoş ünsiyyət yaratması, yüksək insani keyfiyyətə malik olması idi.

Əməkdar incəsənət xadimi, kinorejissor **Elxan Cəfərov** da sənətkarın bu kimi xüsusiyyətlərini təsdiqləyir: "Şərif Şərifovla 1976-cı ildə "Şir evdən getdi" filminin çəkilişləri zamanı görüşdük. O, Rasim İsmayılovla birgə filmin quruluşçu operatoru idi. Bir qədər sonra mənə məlum oldu ki, biz hətta bir binada yaşayırıq. Mənim uşaqlıq yaddaşımda Şərif müəllim işə ciddi münasibəti olan adam kimi qalıb. Onun ciddi simasından çəkinirdim. Qonşu olduğunu bildikdən sonra onu Şərif əmi kimi qəbul etdim.

Həmin illər "Azərbaycanfilm"də qaynar istehsal dövrü idi. Filmin altı aylıq çəkilişləri oldu. Çəkiliş vaxtı hərdən mənə yaxınlaşırdı və "Elxan, bunu belə etsən daha yaxşı olar, bir cəhd elə" deyirdi. Birdən nəsə alınmayanda mənə ciddi-ciddi yaxınlaşıb "Elxan, özünü toparla, sən bacaracaqsan" deyə ruhlandırırdı.

Bir müddət sonra hərbi xidmətə getdim, daha sonra institutu bitirdim. 1991-ci ildə Şərif müəllimlə məhəlləmizdə görüşdük. Yadımdadı, o, ilk dəfə mənimlə böyük kimi danışdı, xeyli söhbət etdik. Onun və eləcə də bizim binada yaşayan kino işçilərinin simasında bir küskünlük hiss edirdim. Onunla söhbət edəndə gözlərində dərin bir nisgili görürdüm və bu təəssüf dolu nisgilin içərisində qarşılaşdığımız çətinlikləri duyurdum. O da yaşlı kino nümayəndələrindən biri kimi kinostudiyadakı boşluğu özünə dərd etmişdi. Mənə elə gəlir ki, onun dünyadan köçməsinin səbəblərindən biri də bu idi. Allah ona rəhmət eləsin... ".

**Şəhla Əmirli**
**kinoşünas**

---

Xatirə təqvimi — 12-14 oktyabr

### Azərbaycan

**12 oktyabr 1938** – Tanınmış kinooperator Şərif İsmayıl oğlu Şərifov (1938 – 26.9.2007) Bakıda anadan olub. Filmləri: "Yol əhvalatı", "Əzablı yollar", "Şir evdən getdi", "Qərib cinlər diyarında" və s.

**12 oktyabr 1974** – Əməkdar incəsənət xadimi, kamança ifaçısı, bəstəkar Qılman Balaməmməd oğlu Salahov (16.3.1906 – 1974) vəfat edib. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəhbəri olub.

**12 oktyabr 1990** – Əməkdar mədəniyyət işçisi, aşıq Mikayıl Cabbar oğlu Azaflı (Zeynalov; 21.3.1924 – 1990) vəfat edib. "Azaflı dübeyti", "Azaflı gözəlləməsi", "Azaflı gəraylısı" kimi aşıq havalarının müəllifidir.

**13 oktyabr 1918** – Əməkdar incəsənət xadimi, rəssam Lətif Əbdülbaği oğlu Feyzullayev (1918-1987) anadan olub. Abşeron təbiətinin koloriti, Xəzər neftçiləri ilə bağlı maraqlı əsərlərin müəllifidir.

**13 oktyabr 1938** – Əməkdar artist Hamlet Ağadadaş oğlu Qurbanov (1938 – 15.11.1995) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə ("Dədə Qorqud", "O dünyadan salam" və s.), televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**13 oktyabr 1940** – Bəstəkar, Əməkdar incəsənət xadimi Rəşid Şəfəq (Rəşid Camal oğlu Əliyev; 1940 – 24.8.2017) Bakıda anadan olub. "Bir saatlıq xəlifəlik", "Baş tutmayan hiylə" operettalarının, uşaqlar üçün musiqili səhnə əsərlərinin ("Tülkü, tülkü, tünbəki..."), mahnıların müəllifidir.

**13 oktyabr 1940** – Əməkdar incəsənət xadimi, kinoşünas İmran Musa oğlu Xəlilov (1940 – 18.7.2000) anadan olub. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**13 oktyabr 1967** – Tanınmış aktyor, teatr xadimi İbrahim Hüseyn oğlu İsfahanlı (Hüseynzadə; 1897-1967) vəfat edib. Tiflis Azərbaycan Dram Teatrının baş rejissoru olub, Gürcüstanın Xalq artisti adına layiq görülüb. "Böyük dayaq" filmində (Yarməmməd) çəkilib.

**13 oktyabr 1974** – Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlul oğlu Bəhlulzadə (15.12.1909 – 1974) vəfat edib. Əsərləri müxtəlif xarici muzeylərin eksponatları sırasındadır.

**14 oktyabr 1875** – Maarif xadimi, naşir Əlisgəndər Hacıbaba oğlu Cəfərzadə (1875-1941) Bakıda doğulub. 1906-1908-ci illərdə "Dəbistan" adlı ilk milli pedaqoji jurnalın naşiri və mühərriri olub.

**14 oktyabr 1912** – Heykəltəraş, Əməkdar incəsənət xadimi Həyat Həmdulla qızı Abdullayeva (1912 – 21.4.2006) Dərbənd şəhərində anadan olub. Şuşada M.P.Vaqifin abidəsi, X.Natəvanın büstü və s. əsərlərin müəllifidir.

**14 oktyabr 1916** – Əməkdar artist Süsən Hacı Aslan qızı Məcidova (1916 – 24.5.1985) anadan olub. Gənc Tamaşaçılar Teatrında çalışıb, "Bir cənub şəhərində", "Bizim Cəbiş müəllim" və s. filmlərdə çəkilib.

**14 oktyabr 1933** – Müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Məmməd Araz (Məmməd İnfil oğlu İbrahimov; 1933 – 2.12.2004) Naxçıvan MR Şahbuz rayonunun Nursu kəndində doğulub. Vətənpərvərlik, milli ruha saygı şairin əsərlərinin aparıcı mövzusudur. Rus şairlərinin əsərlərini dilimizə tərcümə edib.

### Dünya

**12 oktyabr 1896** – İtalyan şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1975) laureatı Eugenio Montale (Eugenio Montale; 1896-1981) anadan olub.

**12 oktyabr 1924** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1921) laureatı Anatol Frans (Anatole France, əsl adı François-Anatole Thibault; 16.4.1844 – 1924) vəfat edib. Əsərləri: "Müasir tarix" silsilə romanları, "Mələklərin üsyanı", "Pinqvinlər adası" və s.

**12 oktyabr 1935** – İtalyan opera müğənnisi Luçano Pavarotti (Luciano Pavarotti; 1935 – 6.9.2007) anadan olub.

**13 oktyabr 1921** – Fransız aktyoru və müğənnisi İv Montan (Yves Montand – İvo Livi; 1921-1991) anadan olub. Çəkildiyi filmlər: "Etiraf", "Vəhşi", "Silah seçimi".

**13 oktyabr 1934** – Rus aktyoru Saveli Kramarov (1934-1995) anadan olub. Filmləri: "Uğur centlmenləri", "Ələkeçməz qisasçılar", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.

**14 oktyabr 1864** – Polyak yazıçısı Stefan Jeromski (Stefan Zeromski; 1864-1925) anadan olub. "Kül", "Həyatın bəzəyi", "Dənizdən külək", "Günahın tarixi" və s. romanların müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

---

# Cümhuriyyət "Azərbaycan"ının külliyyatı – IV cild işıq üzü görüb




ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə hazırlanan "Azərbaycan" qəzeti (1918-1920) külliyyatının IV cildi çapdan çıxıb. IV cild qəzetin 1919-cu il yanvar nüsxələrini – 76-102-ci nömrələri əhatə edir. Qəzetin mətnlərini filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya edib.

Azad Ağaoğlu "Azərbaycan" qəzeti külliyyatının IV cildi ilə bağlı hazırladığı məqalədə bir sıra maraqlı materiallara diqqət çəkir. Onlardan biri qəzetin 1919-cu il 5 yanvar tarixli 79-cu nömrəsində dərc olunan "Müstəqil mətbuat lüzumiyyəti" adlı yazıdır. Yazıda həmin dövrdə Bakıda Rus Milli Komitəsinin orqanı "Yedinaya Rossiya", rus sosialist-inqilabçılarının orqanı "Znamya truda", sosial-demokratların orqanı "İskra", "mötədil" erməni dairələrinin orqanı "Naşe vremya", "Daşnaksutyun" partiyasının orqanı "Vperyod", erməni dilində "Mer orer" qəzetlərinin nəşri barədə söz açılır. Adıçəkilən qəzetlərin hamısı Azərbaycan xalqının və dövlətinin mənafeyinə zidd fəaliyyət göstərən, milli müstəqilliyimizə açıqca düşmən mövqedə dayanan nəşrlər idi.

Belə bir şəraitdə "Azərbaycan" qəzetinin müraciəti necə də aktual səslənir: "...Azərbaycan türk və islamları nöqteyi-nəzərindən lazım gəlir ki, bizim səsimiz düşmənlərimizə müqabil zəif çıxmasın. Bu isə mətbuatımızın çoxalması ilə ola bilər".

"Azərbaycan"ın səhifələrini çevirdikcə, dövrün mətbuatının mənzərəsi gözlərimiz qarşısında daha yaxşı canlanır. Təəssüf ki, bu mənzərə bir o qədər də ürəkaçan deyildir. Məsələn, 16 yanvar tarixli 89-cu nömrədə belə bir xəbər görürük: "Azərbaycan Müsəlman İctimaiyyuni-İnqilabiyyun firqəsi tərəfindən bu günlərdə "Kəndçi və fəhlə" adında türk lisanında həftəlik bir qəzetə nəşr ediləcəkdir". 19 yanvar tarixli 91-ci nömrədə isə Azərbaycan Sosialist-İnqilabçılar partiyası Müvəqqəti Komitəsinin sədri Ruhulla Axundovun bir məktubu dərc edilmişdir. Ruhulla Axundov əvvəlki xəbəri təkzib edərək belə yazır: "..."Əkinçi və fəhlə" qəzetəsi Azərbaycan deyil, müsəlman deyil və sosialist deyil, Qafqaz və Kaspiyski "hökumətinin" erməni millətçilərinin təşəbbüsü və sərmayəsi ilə nəşr edilir".

Bunların müqabilində milli maraqlarımıza xidmət edən nəşr orqanı "Azərbaycan" qəzetidir. Qəzet həm də düşmən mövqedəki bütün bu nəşrlərlə mübarizə aparmaq, onların millətimizə və dövlətimizə yönələn əsassız iddialarını susdurmaq kimi ağır bir yükü öz çiyinlərinə götürmüşdür. Təsadüfi deyil ki, "Azərbaycan" hər nömrəsində "düşmən cəbhədəki" mətbuatın çağırışlarına cavab vermək məcburiyyətində qalır.

Azərbaycan torpağının ən gözəl guşələrindən biri olan Qarabağı qana boyayan daşnak vəhşiliyi barədə xəbərlər də "Azərbaycan" qəzetinin demək olar ki, hər nömrəsində özünə yer tapır:

"Parlaman tərəfindən Qarabağa göndərilmiş olan heyət, başda Xosrov bəy Sultanov olmaq üzrə Bakıya övdət eylədi [qayıtdı]. Mümaileyh [adı çəkilən şəxs] Andranikin Qarabağda etdiyi məzaliməsi [zülmləri] barəsində qayət dəyərli sənədlər gətirmişdir ki, bu günlərdə qəzetələrdə çap ediləcəkdir" (N 86, 13 yanvar).

"Qarabağdan təzəcə gəlmiş Parlaman üzvü Məlik-Yeqanov Qarabağ əhvalı haqqında və Andranik hərəkatı barəsində müxtəsər məlumat vermişdir. Məlik-Yeqanov demişdir ki, hal-hazırda Qarabağda olan 46 mindən ziyadə müsəlman qaçqınları Bakıya gəlməkdədirlər. Onlara burada yer və iş vermək lazım gələcəkdir" (N 88, 15 yanvar).

Yenə qədim Azərbaycan yurdlarından Zəngəzur da erməni daşnaklarının vəhşiliyinə səhnə olmaqdadır. Zəngəzurda dağıdılan, yandırılan, yer üzündən silinən Azərbaycan kəndlərinin sayı yüzlərlədir:

"Zəngəzurdan gələn mürəxxəslərin... sözlərindən anlaşıldığı üzrə, Zəngəzurda ermənilər tərəfindən dağıdılan və xarab edilən kəndlərin ədədi 119 parədir ki, bunların 40 mindən artıq olan əhalisi qırıldıqdan sonra, yerdə qalanları yer və yurdlarından qaçıb Qarabağın sair yerlərinə səpələnibdirlər. Bu qaçqınların halı o dərəcədə fəlakətlidir ki, yazılmaqla qurtarmaz" (N 87, 14 yanvar)...

IV cildin diqqəti cəlb edən materiallarından biri "Türküstan heyəti-mürəxxəsəsi ilə müsahibə" adlı yazıdır. Tarixi adı "Türküstan" olan, bugünkü adıyla "Orta Asiya" kimi tanıdığımız coğrafiyada yaşayan qardaş xalqların nümayəndə heyəti İstanbuldan öz yurdlarına qayıdarkən bir müddət Azərbaycanda dayanmış və "Azərbaycan" qəzetinə müsahibə vermişdir. Türküstan nümayəndələri, Avropaya – Paris Konfransına yola düşən Azərbaycan nümayəndə heyətinin, onları da yaddan çıxarmamasını xahiş edir: "Bu gün hazırda və yeni paydar [bərqərar] olmuş hökumətlərin, dövlətlərin həpsinin gözü fəqət [yalnız] buradadır, fəqət [yalnız] buradan imdad istəyəcəklər. Sizin öhdənizə qardaşlıq haqqı olaraq, digər dövlətlər üçün də çalışmaq vəzifəsi düşəcəyi təbiidir... Güman edirəm ki, qardaşlıq xatirəsinə, türklük şərəfinə Azərbaycan kəndisi üçün çalışarkən, Avropa və yaxud başqa yerdə bizim Türküstanı da unutmaz" (N 80, 6 yanvar).

"Azərbaycan" qəzeti mədəniyyət və incəsənət materialları ilə də zəngindir. Qəzetdə teatr tamaşaları haqqında xəbərlər və yazılar mütəmadi yer alır. Cəfər Cabbarlının "Ölkəm" adlı məşhur şeiri ilk dəfə "Azərbaycan"ın səhifələrində "Gözəl ölkəm" adı ilə çap edilmişdir (N 92, 20 yanvar). Başqa bir nömrədə isə bir qrup Azərbaycan ziyalısının Maarif Nazirliyinə müraciət edərək ədəbi və ictimai-siyasi bir məcmuə çap etdirmək istədikləri xəbər verilir. Ziyalıların müraciətini "təqdir ediləcək bir təşəbbüs" kimi qiymətləndirilən bu yazı güman ki, 1919-cu ilin mart ayında Bakıda nəşrə başlayan "Övraqi-nəfisə" adlı ədəbiyyat, mədəniyyət və incəsənət jurnalı haqqında mətbuatda ilk xəbərdir.

Xatırladaq ki, Cümhuriyyət dövrü "Azərbaycan" qəzetinin ADA Universitetinin layihəsi ilə nəşr edilən tam külliyyatı 20 clddə olacaq. Bundan öncə çapdan çıxan I cild 1918-ci ilin sentyabr-oktyabr aylarını, II cild 1918-ci ilin noyabr, III cild isə dekabr ayını əhatə edib.

# "Uşaqların Nizami Gəncəvi dünyası"

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu yeni nəşrini təqdim edib

VIII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr edilmiş "Uşaqların Nizami Gəncəvi dünyası" adlı kitabın təqdimat mərasimi keçirilib. Kitabda Nizami Gəncəvinin əsərləri əsasında müxtəlif illərdə uşaqlar üçün işlənmiş hekayə-rəvayətlər toplanıb.



Bakı Ekspo Mərkəzinin "Xuşidbanu Natəvan" təqdimat zonasında keçirilən tədbiri Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva açaraq paytaxtımızın növbəti dəfə ev sahibliyi etdiyi beynəlxalq sərginin əsl kitab bayramı olduğunu bildirib. Qeyd edib ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun sərgidə nümayiş etdirdiyi nəşrlər Türk dünyasının zəngin irsinin təbliği və tanıdılması məqsədi daşıyır. Təşkilat tərəfindən həyata keçirilən layihələrin bir istiqaməti də yeni nəsillərə Türk dünyasının çoxəsrlik mədəniyyətinin, dəyərlərinin aşılanmasıdır. Fond tərəfindən hazırlanan "Uşaqların Nizami Gəncəvi dünyası" kitabında ötən əsrin 40-cı illərindən başlayaraq Azərbaycanın görkəmli ədiblərinin, o cümlədən Abdulla Şaiq, Mir Cəlal, Mirmehdi Seyidzadə, Mikayıl Rzaquluzadənin dahi Nizami Gəncəvinin əsərləri əsasında uşaqlar üçün yazdıqları nağıllar toplanıb. Vaxtilə kiçik kitabçalarda çap olunaraq, nəsillərdən – nəsillərə ötürülən bu əsərlər oxucuları öz uşaqlığına qaytaracaq.

Tanınmış uşaq şairi, ədəbiyyatşünas Zahid Xəlil nəşrin əhəmiyyətinə toxunaraq, kitabda böyük mütəfəkkir Nizaminin əsərlərinin, eyni zamanda Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələrinin, klassiklərinin irsinin cəmləşdiyini vurğulayıb.

Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru Ülkər Talıbzadə Nizaminin əsərlərinin motivləri əsasında yaradılan nağıllardan və rəngli illüstrasiyalardan ibarət kitabı Azərbaycan ədəbiyyatının maarifçi klassiklərin ənənələrinin davamı kimi qiymətləndirib.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli Nizami dühasının araşdırılmasının bütün dövrlərdə aktuallığından söz açıb, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr edilən kitabın yeni nəsil üçün önəmli töhfə olduğunu bildirib.

Təqdimatın bədii hissəsində Elm və Təhsil Nazirliyi 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin "Çiçəyim" uşaq teatrı və "Azəri incilə-ri" rəqs kollektivinin təqdimatında Nizaminin əsərlərindən parçalar səsləndirilib, milli rəqslər nümayiş olunub.

Qeyd edək ki, nəşr layihəsinin rəhbəri və ön sözün müəllifi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, kitabın tərtibçisi Fərid Hüseyndir.

Topluda Nizaminin "Xəmsə"sindəki poemalardan "Sehrli üzük", "İki rəssam", "İlin fəsilləri", "İsgəndər və çoban", "Süleyman və əkinçi", "Zalım padşah və qoca", "Kərpickəsən qoca", "Bülbül və qızılquş", "Xeyir və Şər", "Nuşirəvan və bayquşların söhbəti" və digər hekayətlər yer alıb.

# Yunanıstanda Avropa Şurası Mədəni Marşrutlarının Məşvərət Forumu

5-7 oktyabr tarixində Yunanıstanın Krit adasında yerləşən Xaniya şəhərində Avropa Şurası (AŞ) Mədəni Marşrutlarının 11-ci illik Məşvərət Forumu keçirilib. 30-dan artıq mədəni marşrutun təmsil olunduğu forumda Azərbaycan nümayəndələri də iştirak ediblər.




Forumda Mədəni Marşrutların İdarə Heyəti üzvlərinin iclasında çıxış edən Mədəniyyət Nazirliyi Beynəlxalq əməkdaşlıq şöbəsinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq sektorunun müdiri Araz Bağırlı Azərbaycanın 2011-ci ildə proqrama qoşulan ilk ölkələrdən biri olduğunu diqqətə çatdırıb. O, ötən müddətdə proqramın əhatə etdiyi mədəni marşrutların sayının artmasının müsbət göstərici olduğunu vurğulayaraq, mədəniyyətlərarası dialoqun təşviqinə yönəlmiş layihələrin ölkəmiz tərəfindən dəstəkləndiyini bildirib.

İclasdan sonra Mədəni Marşrutlar üzrə Genişləndirilmiş Hissəvi Sazişin İdarə Heyətinin sədri, İsveçrə təmsilçisi Julyen Vüllemier, AŞ Mədəni Marşrutlar üzrə Universitetlər Şəbəkəsinin rəhbəri, Nottinqem Trent Universitetinin (Britaniya) professoru Mayk Robinson ilə fikir mübadiləsi aparılıb.

Forumun "Mədəniyyətlərarası dialoqun təşviqi" adlı panelini giriş sözü ilə Azərbaycanın AŞ yanında daimi nümayəndəsi, AŞ Nazirlər Komitəsinin Təhsil, mədəniyyət, idman, gənclər və ətraf mühit üzrə məruzəçilər qrupunun rəhbəri səfir Fəxrəddin İsmayılov açıb. O, çıxışında Avropa Şurasında mədəni proqramların önəmini, mədəniyyətlərarası dialoqla bağlı ölkəmizin təşəbbüsü olan "Bakı Prosesi"nin əhəmiyyətini vurğulayıb.

Forumda ölkəmizi təmsil edən nümayəndə heyəti ilə AŞ Mədəni Marşrutlar üzrə Genişləndirilmiş Hissəvi Sazişin icraçı katibi, Mədəni Marşrutlar Proqramının direktoru Stefano Dominioni arasında görüş keçirilib. Görüşdə Araz Bağırlı ölkəmizin mədəniyyətlərarası dialoqa verdiyi töhfələr, "Bakı Prosesi" və bu təşəbbüs çərçivəsində nəzərdə tutulan qlobal tədbirlər haqqında məlumat verib. Azərbaycanın ərazisindən keçən mədəni marşrutların perspektivləri, ölkəmizlə ikitərəfli əməkdaşlıq və ölkəmizin qoşula biləcəyi yeni marşrutlar ətrafında fikir mübadiləsi aparılıb.

Forum çərçivəsində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurasının Mədəniyyət, İrs və Landşaft üzrə Rəhbər Komitəsi (CDCPP), 48 ölkədə mövcud olan "İndustrial irs" mədəni marşrutunun rəhbəriyi və müxtəlif ölkələrin mədəniyyət nazirliklərinin təmsilçiləri ilə də görüşlər keçirilib.

Forumun son günü təşkil edilən B2B sessiyalarda ölkəmizin qoşulduğu "Qayaüstü rəsmlər" marşrutunun rəhbəri Ramon Montes, "Itervitis – şərab marşrutu"nun rəhbəri Emanuela Panke, "Zeytun yolları" mədəni marşrutun rəhbəri Marinella Katsilieri ilə Mədəniyyət Nazirliyinin təmsilçisi Araz Bağırlı, Dövlət Turizm Agentliyinin nümayəndələri Elşən Mustafayev və Sədaqət Davudova arasında əməkdaşlıq perspektivləri ətrafında müzakirələr aparılıb.

Qeyd edək ki, 2011-ci ildə AŞ Mədəni Marşrutlar üzrə Genişləndirilmiş Hissəvi Sazişinə qoşulan Azərbaycan 2014-cü ildə 4-cü illik Məşvərət Forumuna ev sahibliyi edib. 2017-ci ildə Bakıda keçirilən 4-cü Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mədəni marşrutlara həsr edilmiş xüsusi panel sessiyası təşkil olunub.

# Türk dünyası Ərzincanda görüşür




9-12 oktyabr tarixində Türkiyənin Ərzincan şəhərində "Türk dünyası Ərzincanda görüşür" adlı beynəlxalq simpozium keçirilir.

Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın başçılığı ilə keçirilən tədbirdə Azərbaycan da geniş heyətlə təmsil olunur.

Ərzincan Binəli Yıldırım Universitetinin ev sahibliyi etdiyi tədbir Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin himayəsi ilə təşkil olunub.

Simpoziumun əsas məqsədi Türk dünyasının dil, ədəbiyyat, tarix, sənət, enerji, diaspor, ticarət, beynəlxalq münasibətlər kimi bir çox sahələr üzrə elmi araşdırmalara ortaq platforma yaratmaqdır.

Tədbirin proqramına müxtəlif ölkələri əhatə edən bir çox mövzularla yanaşı "Qarabağ Zəfəri və Azərbaycan Ordusunun tarixi qələbəsi Türkiyə mətbuatında", "Qarabağ Zəfəri və Qars-İğdır-Naxçıvan dəmiryolunun əhəmiyyəti", "Zəngəzur dəhlizi və onun strateji əhəmiyyəti", "Xocalı soyqırımı", "Azərbaycan bəstəkarlarının yaradıcılığında muğamın rəngləri", "Əhməd Ağaoğlu", "Üzeyir Hacıbəyli", "Hüseyn Cavid", "Həsən bəy Zərdabi" mövzularında panel iclasları da daxildir.

**Mehparə Sultanova**
**Ankara**

# Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 530 il əvvəl...

**12 oktyabr 1492-ci ildə** Xristofor Kolumbun gəmiləri Amerika sahillərinə çıxıb. Ekspedisiyanın çıxdığı ilk ərazi indiki Baham adaları olub. Bu gün tarixə Amerikanın "kəşf" edilməsi günü kimi düşüb. Hərçənd Kolumbun dünya ekspedisiyası Hindistana səfər etməyi planlaşdırırdı və gəlib çıxdıqları torpaqların Hindistan olduğunu zənn edirdilər. Bununla belə, Amerikanın kəşfi Kolumbun adı ilə bağlandı. 12 oktyabr ABŞ-da "Kolumb günü", onun vətəni İspaniyada isə "İspan milləti günü" kimi qeyd edilir.

### 209 il əvvəl...



**12 oktyabr 1813-cü ildə** Rusiya ilə İran arasında müharibənin (1804-1813) başa çatması ilə bağlı Gülüstan sülh müqaviləsi imzalanıb. Qarabağın şimalında (indiki Goranboy rayonu) yerləşən Gülüstan kəndində bağlanan müqaviləyə əsasən, Azərbaycan torpaqları ikiyə bölünüb. Azərbaycanın Araz çayından şimaldakı torpaqları – Gəncə, Qarabağ, Şəki, Şamaxı, Quba, Bakı və Talış xanlıqlarının ərazisi Rusiya imperiyasının tərkibinə daxil edilib. Naxçıvan və İrəvan xanlıqları İranın nəzarətində qalıb. Sülh sənədini Rusiya tərəfdən çar I Aleksandrın xüsusi nümayəndəsi general Nikolay Rtişşev, İran tərəfdən Fətəli şahın təmsilçisi Mirzə Əbülhəsən imzalamışdı. Müqaviləyə əsasən, İran Xəzər dənizində hərbi donanma saxlamaq hüququnu itirib.

### 195 il əvvəl...

**13 oktyabr 1827-ci ildə** II Rusiya-İran müharibəsi (1826-1828) gedişində Cənubi Azərbaycan torpaqlarına daxil olan rus qoşunları Təbrizi ələ keçirib. Ardınca general İvan Paskeviçin qoşunları Ərdəbil və Urmiyanı da işğal edib. Ruslar işğalı genişləndirməklə gələcək sülh müqaviləsində maksimum üstünlük əldə etmək niyyəti güdürdülər. 1828-ci ilin fevralında bağlanan Türkmənçay müqaviləsi bunu təsdiqlədi.

### 142 il əvvəl...

**13 oktyabr 1880-ci ildə** Bakı-Sabunçu-Suraxanı xəttinin istifadəyə verilməsi ilə Azərbaycanda dəmiryolu nəqliyyatının əsası qoyulub. Prezident İlham Əliyevin 2005-ci ildə (7 oktyabr) imzaladığı sərəncamla 13 oktyabr Azərbaycanda "Dəmiryolu işçilərinin peşə bayramı günü" elan olunub.

### 101 il əvvəl...

**13 oktyabr 1921-ci ildə** Türkiyə, Rusiya və Cənubi Qafqazın üç sovet respublikası – Azərbaycan, Ermənistan və Gürcüstan arasında Qars müqaviləsi imzalanıb. Sənəddə 1921-ci ilin martında Rusiya ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsinin Cənubi Qafqazla bağlı müddəaları dəqiqləşdirildi, Türkiyənin Azərbaycan, Ermənistan və Gürcüstanla sərhədləri müəyyənləşdi. Müqavilənin mühüm bəndlərindən biri Naxçıvanla bağlı idi. Sənəddə Naxçıvanın Azərbaycan ərazisi olduğu və Türkiyənin razılığı olmadan Naxçıvanın yurisdiksiyasının dəyişdirilməsinin yolverilməzliyi təsbit edilmişdi.

### 99 il əvvəl...



**13 oktyabr 1923-cü ildə** Ankara Türkiyənin yeni paytaxtı elan edilib. Paytaxtın İstanbuldan Ankaraya köçürülməsi Mustafa Kamal Atatürkün təşəbbüsü idi. 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinin toplandığı və xalqın qurtuluş mücadiləsinin idarə olunduğu şəhər yeni Türkiyənin mərkəzi halına gəlmişdi. 29 oktyabrda yeni paytaxtda Türkiyə Cümhuriyyətinin qurulduğu elan edildi.

### 98 il əvvəl...

**12 oktyabr 1924-cü ildə** Ukrayna SSR tərkibində Moldaviya Muxtar Sovet Sosialist Respublikası təşkil olunub. Muxtar respublika indiki Moldovanın təxminən üçdəbirini əhatə edirdi. 1940-cı ildə Sovet İttifaqı tərəfindən Bessarabiya Rumıniyadan qoparıldı və bu bölgənin Moldaviya MSSR-lə birləşdirilməsi nəticəsində Moldaviya SSR (2 avqust 1940) yaradıldı.

### 24 il əvvəl...

**11 oktyabr 1998-ci ildə** Azərbaycanda növbəti prezident seçkiləri keçirilib. MSK-nın rəsmi məlumatına əsasən, dövlət başçısı Heydər Əliyev 76,11 faiz səs qazanaraq ikinci dəfə prezident seçilib.

### 17 il əvvəl...

**12 oktyabr 2005-ci ildə** Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Gürcüstan hissəsinin açılış mərasimi keçirilib. Bundan öncə, 2005-ci il mayın 25-də kəmərin Azərbaycan hissəsinin açılışı olmuşdu. 1768 km-lik boru xətti ilə neft Türkiyənin Ceyhan limanına 2006-cı il mayın 28-də çatdı.

**Hazırladı: V.Orxan**

# "Avroviziya-2023" "Bitlz"in vətənində keçiriləcək

Böyük Britaniyanın "Avroviziya-2023" mahnı müsabiqəsinə ev sahibliyi edəcək şəhəri məlum olub. Sayca 67-ci müsabiqə gələn ilin mayında əfsanəvi "Bitlz" ("The Beatles") musiqi qrupunun ("Liverpul dördlüyü") vətəni olan Liverpul şəhərində təşkil ediləcək.

Xatırladaq ki, bu il İtaliyanın Turin şəhərində keçirilən müsabiqənin qalib ("Kalush Orchestra" qrupu) ölkəsi kimi növbəti yarışmaya Ukrayna ev sahibliyi etməli idi. Lakin hələ iyul ayında Avropa Yayım Birliyi (EBU) təhlükəsizlik nöqteyi-nəzərindən yarışmanın bu ölkədə keçirilməsinin mümkünsüz olduğunu bəyan etmişdi. "Obyektiv təhlildən sonra referent qrupu təəssüf hissi ilə belə qərara gəlib ki, mövcud vəziyyət, təhlükəsizlik zəmanəti nəzərə alınaraq, yayımçı müsabiqənin qaydalara uyğun təşkili və keçirilməsi üçün zəruri olan şərtləri yerinə yetirə bilməyəcək", - deyə EBU-nun bəyanatda bildirilirdi.

Beləliklə, ev sahibi hüququnu Turində təmsilçisi (Sem Rayder) ikinci olan Britaniya qazanmışdı.

Birləşmiş Krallıq indiyədək "Avroviziya"nı səkkiz dəfə qəbul edib. Lakin müsabiqə heç vaxt Liverpulda keçirilməyib. "Avroviziya-2023" 11 min tamaşaçı tutan M&S Bank Arenada təşkil ediləcək.

Onu da qeyd edək ki, EBU-nun qərarına əsasən, Ukrayna müsabiqəni təşkil edə bilməsə də, 2022-ci ildə "Avroviziya"nın qalibi kimi gələn il Britaniyada keçiriləcək yarışmada birbaşa finala vəsiqə qazanacaq.

**V.Kamal**

# Azərbaycanlı pianoçu Parisdə "Yeni ulduzlar" konsertində çıxış edib

Parisdəki "Sainte Marie des Batignolles" kilsəsində "Yeni ulduzlar" gənc istedadlar beynəlxalq müsabiqəsi laureatlarının konserti olub. Qala-konsertdə 15 yaşlı azərbaycanlı pianoçu Səməd Əlizadə də çıxış edib.



Səməd Əlizadə piano üzrə musiqi təhsilinə 2013-cü ildə Əfrasiyab Bədəlbəyli adına 11 illik Musiqi məktəbində başlayıb. Hazırda Bakı Avropa Liseyinin 10-cu sinfində oxuyan gənc istedad 2020-ci ildə Dünya İncəsənət Oyunları Festivalında birinci yeri, 2020 və 2021-ci illərdə Fransada Adilə Əliyeva adına beynəlxalq musiqi müsabiqələrində üçüncü yeri tutub. 2020-ci il "Sopravista" Beynəlxalq Festivalının 1-ci dərəcəli, 2021-ci ildə "Le Ciel de Paris" III Beynəlxalq Musiqi və İncəsənət Müsabiqəsinin II dərəcəli laureatı olub. 2022-ci ilin iyulun 10-da Parisdə "Saint Germain des Prés" kilsəsində ARTİMA Assosiasiyası tərəfindən təşkil edilmiş 6-cı "Yeni ulduzlar" müsabiqəsində uğurla iştirak edərək birinci yeri tutub.

"Yeni ulduzlar" gənc istedadlar beynəlxalq müsabiqəsinin təşkilatçısı ARTİMA Assosiasiyası 2010-cu ildə yaradılıb. Assosiasiya gənc fransız və əcnəbi musiqiçiləri dəstəkləmək və təbliğ etmək üçün müsabiqələr, konsertlər və maarifləndirici aksiyalar təşkil edir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB** 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2953
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641